Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

24-26 AVQUST 2019-cu il

№ 148 (4046)

Qiymәti 40 qәpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYANIN «OKTYABR PLANI» - ABŞ-ın ŞANTAJ OLUNMASINDA RUHANİ KARTINDAN İSTİFADƏ...

səh. 6

Ermənistan XİN-dən Düşənbədə Əliyev-Paşinyan razılaşması barədə təxribatçı yalan...

səh. 3

Azərbaycanın hərbi üstünlüyü və erməni ordusunda deqradasiyanın son həddi - Ermənistanda narahatlığın iki əsas motivi...

səh. 9

Moskvadan İrəvana "Poqosyan təhqiri" - erməni politoloqlar "zəncir gəmirir"...

səh. 7



Əsəd Türkiyənin hərbi bazasını mühasirəyə saldı

səh. 4



Gəncədə arxeologiya parkı...

səh. 11




Yazıçılar Birliyinin qurultayı gəlir - sədr məsələsi gündəmdə...

səh. 13




səh. 8

## Avrasiyanın mühüm dəmir yolları şəbəkəsinin Azərbaycanla birləşməsinə çox az qaldı...



Deputatların böyük hissəsi Azərbaycana qarşı plan hazırlayan radikallara münasibət bildirməkdən qaçır...

səh. 4

Ermənistan vaxtsız parlament seçkilərinə doğru gedir - Amulsar və Rusiya problemi Paşinyanı çaşdırıb...

səh. 5



Azərbaycan tərəfinə qaçmış fərari erməni əsgərin qardaşı Ermənistanı ifşa etdi...

səh. 3

səh. 5

Ermənistan xaricdə seçki pulu dilənir, qondarma "Artsax"da seçki maliyyələşdirir...



səh. 10

Azərbaycanda bağça işinə dair kədərli rəqəmlər - 500-dən çox ali təhsilsiz direktor, cəmi 31 faiz ali təhsilli müəllimə...



səh. 10

2019-2020-ci tədris ili üçün məktəblərdə 7 min vakant müəllim yeri çıxdı...



səh. 14

Azərbaycandan gedən turistlər gələn turistlərin sayını 1 milyon üstələdi...



səh. 15

Unudulmuş daha bir yaradıcılıq növü - teletamaşalar...



## Elxan Poluxov daha bir ölkənin başçısına İlham Əliyevin dəvət məktubunu təqdim etdi

**20-22 avqust tarixlərində, iqamətgahı Brazilia şəhərində olmaqla, Azərbaycanın Qayana Kooperativ Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Elxan Poluxov paytaxt Corctaun şəhərində bu ölkənin Dövlət naziri Dovn Hastinqs, Xarici işlər naziri Karen Kamminq, Təbii sərvətlər naziri Rafael Trotman və Parlament spikeri Barton Skotlandla görüşlər keçirib.**




Keçirilən görüşlər zamanı səfir Elxan Poluxov Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Bakıda keçiriləcək Zirvə toplantısına dəvət məktubunu təqdim edib və qarşı tərəf məktubu məmnuniyyətlə qəbul edib. Bundan başqa, görüşlərdə ölkələr arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlıq məsələləri ilə yanaşı, təhsil sahəsində də əməkdaşlıq məsələləri müzakirə edilib, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq təşkilatlarına üzv ölkələrin vətəndaşları üçün təqaüd proqramları haqqında ətraflı məlumat verilib.

Bundan əlavə, səfir Elxan Poluxov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında da həmsöhbətlərini məlumatlandırıb. Parlamentin spikeri ilə görüşdə Parlament diplomatiyası, Parlamentlərarası əlaqələrin inkişafı məsələləri ətraflı müzakirə edilib. Tərəflər qeyd ediblər ki, ikitərəfli əlaqələrin inkişafı üçün böyük potensial mövcuddur və əməkdaşlıq intensiv olaraq beynəlxalq təşkilatlar çərçivəsində də davam etdirilməlidir. Səfir Elxan Poluxov Qayanaya səfəri çərçivəsində ölkənin aparıcı KİV-ləri olan "Stabroeknyuz" və "Nyusroom" qazetlərinə və ölkənin dövlət televiziya kanalına müsahibə verərək, iki ölkə arasında münasibətlər, Azərbaycan tərəfinin təqdim etdiyi təhsil təqaüdləri və gələn il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25 illik yubileyi haqqında geniş məlumat verib.

## Hava hücumundan müdafiə vasitələri döyüş atışları icra edib

**Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına uyğun olaraq ümumqoşun birliklərinin hava hücumundan müdafiə vasitələri döyüş atışlarını yerinə yetirib.**



Müdafiə Nazirliyindən "Trend"ə verilən məlumata görə, təlim məşqləri zamanı hərəkətdə olan müxtəlif parametrli hədəflər döyüş heyətləri tərəfindən aşkar olunaraq məhv edilib. Qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirən şəxsi heyətin biliyi, bacarığı və praktiki vərdişləri yüksək qiymətləndirilib.

## Sulduz Zahirəliyev vətən naminə yaşadı...

**Vətənə məhəbbət Sulduz Əliş oğlu Zahirəliyevin canına ana südü ilə hopmuşdu. Odur ki, 19 il bu dünyada yaşasa da, ona olan övladlıq borcunu ləyaqətlə verdi.**

Qarabağ döyüşlərində şəhidlik zirvəsinə ucalmaqla bir daha göstərdi ki, Vətən onun üçün hər şeydən əzizdir. İndi boya-başa çatdığı Lerik rayonunun Davidoni kənd camaatına onun həyat yolu Vətən boyda qürur mənbəyidir.

Qəlb dünyası yer üzünün səadətinə, xoşbəxtliyinə sevdalanan Sulduz Zahirəliyevi 1992-ci ildə orduya yola salırlar. Ağdamda vətən torpaqlarının müdafiəsinə qalxır. Yeganə amalı torpağı düşməndən qorumaq olur. Bir-birindən çətin döyüşlərdə, müharibənin ən qaynar nöqtələrində erməni dığalarına qarşı mərdliklə vuruşur, onlara böyük itkilər verdirir. Mübarizə meydanında vətənə sədaqət, doğma torpağa sevgi Sulduzun qəlbinə hakim kəsilir, getdiyi qəhrəmanlıq yolunun yolçusuna çevrilir. Buna görə də Ağdamın Canyataq, Mehmana, Fərrux, Gülyataq, Çaldıran, Sırxavənd və Qalaycılar kəndlərində apardığı uğurlu əməliyyatların sayı bilinmir. Vətən naminə göstərdiyi şücaətləri ilə əsgər yoldaşlarının yanında böyük etimad qazanır.

Sulduzun son savaşı Xındırıstan kəndində olur. Vətən yaşasın deyə, bu qanlı müharibəyə də ürəklə atılır. Yurdsevər, vətənpərvər olduğunu düşmənə vurduğu zərbələrlə bildirir. Son nəfəsə qədər döyüşür. 1993-cü il oktyabrın 10-da düşmən gülləsi Sulduzun Vətən eşqi ilə döyünən ürəyinə dəyir. Beləliklə müqəddəs, şərəfli bir yolda şəhid olmaqla milyonların ürəyinə köçür Sulduz...

*Zəfər ORUCOĞLU*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# İşğal olunmuş Azərbaycan torpaqlarında dini abidələrin vandalcasına dağıdıldığını sübutlayan daha bir sənəd...

**Qafqaz Müsəlmanları İdarəsi nəzdində fəaliyyət göstərən Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi bəyanat yayıb.**



Mərkəzdən "Trend"ə daxil olan bəyanatda bildirilir ki, bu il Birləşmiş Millətlər Təşkilatı 22 avqustu din və etiqad zəminində zorakılıq aktları qurbanlarının Anım Günü olaraq təsis edib: "İstənilən zəmində və müstəvidə baş verən zorakılıq hallarını qətiyyətlə pisləyərək, din və etiqad mənsubiyyəti əsnasında zorakılıqla üzləşən insanlara dəstək olur, onlarla həmrəyliyimizi bildiririk. Dini mənsubiyyət və etiqadına görə insanların bu və ya digər zorakılıq halları ilə qarşılaşmasını önləmək, qarşısını qətiyyətlə almaq məramı ilə dünyanın siyasi, ictimai, elmi və dini institutları ilə əməkdaşlıq etməyə, səylərimizi birləşdirməyə hazır olduğumuzu bəyan edirik".

Bəyanatda qeyd olunur ki, XXI əsrdə dini etiqada görə zorakılığa məruz qalma təhlükəsi sivil dünyaya başucalığı gətirmir. Təbii insan haqlarından olan din, etiqad azadlığının təmin olunması olduqca mühümdür. Bu sahədə hər hansı zor, təhdid qətiyyən yolverilməzdir: "Biz insanların məscidlərdə, kilsələrdə, sinaqoqlarda, digər dini məbədlərdə ibadət zamanı terror edilməsi kimi hallar ikrah və hiddət doğurur. Misirdə qibti zəvvarlara təcavüz, Fələstin, Suriya, Əfqanıstan, Liviyadakı durum, Yeni Zelandiya, Şri-Lanka, Pitsburqda və digər yerlərdə dini məbədlərdə törədilən mənfur terror hadisələri sivilizasiyalar arasında qütbləşməni dərinləşdirir.

Biz din və etiqad zəminində zorakılıq aktları qurbanlarını yad edərkən, bir məqamı nəzərdən qaçırmamalıyıq ki, bu hallar insan qırğını ilə yanaşı, maddi və qeyri-maddi mədəni irsin məhvi ilə müşayiət olunur. Belə zorakılıq aktları insanlara fiziki zərbə ilə yanaşı, mənəvi zərbələr vurur, minilliklər ərzində formalaşmış dinimənəvi irs abidələrini məhv etmək, mədəni ənənələri aradan qaldırmaq kimi məkrli niyyət güdür. Beləliklə, məhv edilən dini-mənəvi abidələr də din və etiqad zəminində zorakılıq aktlarının qurbanları kimi nəzərdən keçirilməlidir".

Bəyanatda vurğulanır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal olunmuş əzəli Azərbaycan torpaqlarında xalqımızın məhv edilən, siması dəyişdirilən dini mənəviyyat abidələri belə bir vandal münasibətlə üzləşib. "Təəssüflər olsun ki, qloballaşan dünyada siyasi iddialar, iqtisadi maraqlar səbəbindən mənəvi-əxlaqi dəyərlər çox vaxt nəzərə alınmır ki, bu da insan hüquqlarının təmin olunması sahəsində ikili standartlara yol açır. Məsələn, Yaxın Şərqdə baş verən faciəvi hadisələr fonunda miqrant axını yaradan səbəbləri aradan qaldırmaq əvəzinə, insanlıq dramı yaşayan məcburi miqrantlara qarşı anti-humanist münasibət, irqçi və aqressiv davranış nümayiş etdirilir ki, bu da din və etiqad zəminində zorakılıq aktı kimi səciyyələndirilə bilər", - deyə bəyanatda bildirilir.

Sənəddə qeyd olunur ki, sülh və ədalətin təminine xidmət edən dəyərlər sırasında dinc birgəyaşayış, qarşılıqlı anlaşma mədəniyyəti, humanist dəyərlər önəmli yer tutur: "Bu gün sülhün qorunması probleminin həllində, habelə terrorizm, ksenofobiya, antisemitizm, islamofobiya, ekstremizm və radikalizmin qarşısının alınmasında, dünyada sabitlik və əmniyyətin bərqərarı üçün dövlət rəhbərlərinin, ictimai və dini liderlərin birgə, davamlı əməkdaşlığı vacibdir. Dünya çapında taleyüklü qərarlar verilərkən dünya dini liderlərinin mənəvi, dini-əxlaqi dəyərləndirmələri, müdrik tövsiyə və məsvərətlərinə ehtiyac var. Bu baxımdan, bu gün milli, irqi, dini ekstremizmi önləyə biləcək multikultural həyat tərzinin qloballaşan dünyaya təqdim edilməsi vacibdir.

Bütün dinlər zor və şiddətə yox deyir. Biz, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin üzləri dünyanın bütün siyasi və dini liderlərinə müraciət edərək, sülhün, sabitliyin qorunması naminə səylərini artırmağa, bu yolda dinlər, mədəniyyətlər arası əməkdaşlığın imkanlarından bəhrələnməyə çağırırıq. Bütün bu təzahürlərin aradan qaldırılması işində dövlət rəhbərlərinin, ictimai və dini qurum liderlərinin birgə əməkdaşlığını vacib sayırıq".

# Putin Rusiya ordusuna ABŞ raketlərinə qarşı "hazır ol" əmri verdi

**Rusiya prezidenti Vladimir Putin orduya ABŞ-ın raket sınağına qarşı görüləcək tədbirlərə hazır olmağı tapşırıb.**

Baki-xeber.com xəbər verir ki, ABŞ-ın raket sınaqları ilə bağlı Rusiya Təhlükəsizlik Şurasının iclasını keçirən Putin bildirib ki, bu sınaqlar Vaşinqtonun dünyanın müxtəlif bölgələrinə qadağan edilmiş raketləri yerləşdirmək niyyətini ortaya qoyur. Qeyd edək ki, ABŞ Rusiyanın Orta Mənzilli Nüvə Qüvvələri Sazişinin (INF) şərtlərini pozduğunu iddia edərək sazişi birtərəfli qaydada ləğv edib. Rusiya Xarici İşlər Nazirliyi isə bu ayın əvvəlində Orta Mənzilli Nüvə Qüvvələri Sazişinin rəsmi olaraq başa çatdığını açıqlayıb.



Bunun ardınca ABŞ avqustun 19-da 500 kilometrdən çox olan yeni bir orta mənzilli raketi sınaqdan keçirdiklərini açıqlayıb.

# ABŞ Türkiyəni "Patriot" sistemindən də çıxardı

**ABŞ Türkiyəyə "Patriot" raket sistemi satmaq təklifini rəsmən geri çəkib.**

Baki-xeber.com xəbər verir ki, bu barədə CNN-ə ABŞ Dövlət Departamentinin rəsmilərindən biri açıqlama verib.

"Türkiyəyə, davamlı şəkildə S-400 raketdən müdafiə sistemi alarsa, son "Patriot" təklifimizi geri çəkəcəyimizi söyləmişdik.



"Patriot" təklifimizin müddəti tamam oldu" - Dövlət Departamentinin nümayəndəsi deyib.

"Patriot" təklifinin geri çəkilməsi Türkiyənin "S-400" almasına rəsmi Vaşinqtonun son cavabı kimi qiymətləndirilir.

ABŞ bundan əvvəl də Türkiyəni birgə istehsalçıları arasında yer aldığı "F-35" proqramından çıxarmışdı.

# Ermənistan XİN-dən Düşənbədə Əliyev-Paşinyan razılaşması barədə təxribatçı yalan...

**Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan son açıqlamasında deyib ki, Azərbaycanla Ermənistan arasında mövcud olan operativ əlaqə işlək vəziyyətdədir. Qeyd edək ki, iki tərəf arasında rabitənin qurulması haqqında razılıq ötən ilin sentyabr ayında Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasındakı qısa görüşdə əldə olunmuşdu.**



## *Akif Nağı: "Özlərini konstruktiv, humanist göstərmək istəyirlər ki, digər addımlarını pərdələyə bilsinlər"*

Liderlər MDB dövlət başçılarının Düşənbədəki sammiti çərçivəsində görüşmüşdülər. İlham Əliyevlə Nikol Paşinyan əsasən təmas xəttindəki gərgin vəziyyəti müzakirə etmişdilər.

Bu, İlham Əliyevlə Nikol Paşinyan arasında ikinci qeyri-formal görüş idi. Paşinyan görüşdən sonra demişdi ki, Azərbaycan Prezidenti ilə sərhəddə hər iki tərəfdən gərginliyə və insidentlərə yol verməmək məqsədilə konkret tədbirlər görmək üçün müdafiə nazirlərinə tapşırıq veriblər. Ancaq son zamanlar baş verən hadisələr göstərir ki, Düşənbədə əldə olunan razılaşma işləmir. Çünki təmas xəttində atəşkəs tez-tez pozulur, hətta Ermənistan rəhbəri işğal olunmuş Azərbaycan torpaqlarına ayaq basaraq, oradan "Qarabağ Ermənistanındır" şüarını səsləndirir. Belə olan təqdirdə hansı operativ əlaqədən danışmaq olar? Ermənistan XİN-in belə yalanı ifadə etməkdə hansı məqsədi ola bilər?

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələdə də ermənilər təxribatla məşğul olurlar: "Mən dəfələrlə demişəm ki, müharibə şəraitində yaşadığımız üçün, biz mütləq mənada yayılan rəsmi məlumatlara inanmalıyıq. Çünki müharibə eyni zamanda informasiya məkanında aparılır. Hiss edilir ki, ermənilər bundan məharətlə istifadə etməyin yollarını bilirlər. Əksər hallarda da bu istiqamətdə yalanları tirajlayırlar. Bütün hallarda, onların ifadə etdiyi fikirlərə inanmamalıyıq və yalnız özümüzün rəsmi qurumları məlumat yaydığı və ya hansısa xəbəri təsdiqlədiyi halda buna şübhə ilə yanaşmamalıyıq. Mən Ermənistan tərəfinin yaydığı bu məlumatı inandırıcı saymıram, növbəti dezinformasiya kimi qəbul edirəm. Məsələnin başqa tərəfi isə budur ki, niyə ermənilər belə məlumatın yayılmasında maraqlıdırlar? Bununla onlar həm daxili rəyi formalaşdırırlar ki, hər şey qaydasındadır, biz daim Azərbaycanla təmasdayıq. Bir növ, demək istəyirlər ki, cəbhə xəttində hər hansı narazılıq yoxdur və gözlənilmir. İkinci hədəfləri isə beynəlxalq ictimaiyyətdir. Özlərini konstruktiv, humanist göstərmək istəyirlər ki, digər addımlarını pərdələyə bilsinlər. Bizim XİN və Müdafiə Nazirliyi dəfələrlə bəyan edib ki, bizimlə Ermənistan arasında hər hansı bir operativ əlaqə mexanizmi yoxdur. Bu baxımdan da biz Azərbaycanın rəsmi mövqeyi ilə hesablaşmalıyıq. Ola bilər ki, tərəflər arasında belə bir razılıq olmuşdu, amma Ermənistan tərəfinin davranışlarından sonra həmin mexanizmin mövcud olması heç də inandırıcı görünmür. Erməni tərəfi dividend əldə etmək üçün belə yalanı tirajlayır".

*"Ermənistan tərəfinin davranışlarından sonra həmin mexanizmin mövcud olması heç də inandırıcı görünmür"*

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan tərəfinə qaçmış fərari erməni əsgərin qardaşı Ermənistanı ifşa etdi...

**İşğal altındakı Azərbaycan ərazilərində, təmas xəttinin Füzuli-Xocavənd istiqamətində dislokasiya olunmuş erməni hərbi hissəsinin 19 yaşlı əsgəri, avqustun 12-də Azərbaycan tərəfə keçən Araik Kazaryanın qardaşı onun zabitlərlə probleminin olduğunu deyib. Hazırda Ermənistan ordusunda müqavilə əsasında xidmət keçən Armen Kazaryan "Aykakan jamanax" qəzetinin əməkdaşı ilə söhbətində həmin informasiyanı ona Beynəlxalq Qırmızı Xaç təşkilatından verdiklərini bildirib.**



## *Əhməd Şahidov: "Ermənistan hakimiyyəti Araik Kazaryanın ailəsini və yaxınlarını hər vəchlə susdurmağa çalışır"*

Lakin Armen Kazaryan deyib ki, o, qardaşının qulluq etdiyi hərbi hissəyə gedə və təfərrüatları öyrənə bilməyib. "Mənə hərbi hissəyə getməyə icazə vermədilər. Ancaq Stepanakertdə (Xankəndidə - red.) hərbi polisdə oldum, oradan məni geri göndərdilər, hərbi hissəyə buraxmadılar", - Kazaryan əlavə edib.

Armen Kazaryanın bildirdiyinə görə, ona deyiblər ki, qardaşının Azərbaycan tərəfə keçməsi ilə bağlı məsələ məxfidir: "Ailə üzvlərimizdən də gizlədirlər".

Hərbi hissədə qardaşına təzyiq edildiyi, döyüldüyü haqda xəbərlər barədə isə Armen Kazaryan bunları deyib: "Mən bilirdim ki, onun problemləri var, lakin bu problemlərlə bağlı getdik, adamlarla görüşdük, hər şey qaydasına düşdü".

Kazaryan əlavə edib ki, qardaşının problemi əsgərlərlə yox, zabitlərlə olub. Görünür, Müdafiə Nazirliyi bu səbəbdən faktları gizlədir.

Xatırladaq ki, Beynəlxalq Qırmızı Xaç nümayəndələri artıq fərari erməni əsgərlə görüşüblər. Azərbaycan Müdafiə Nazirliyinin bildirdiyinə görə, Araik Kazaryan qulluq etdiyi hərbi hissədə müntəzəm döyüldüyünü, alçaldıldığını danışıb, onun başında, kürəyində və əlində xəsarət izləri olub. Qeyd edək ki, Ermənistanın rəsmi dairələri əsgərin hərbi hissədə incidildiyinə dair məlumatları təkzib edirdilər. Faktiki olaraq, onun qardaşı Ermənistanın yalan siyasətini ifşa etmiş olub. Qardaşının məhz zabitlər tərəfindən incidildiyinə dair açıqlama verib. Bu amil Ermənistan ordusu ilə bağlı hansı təsəvvürləri yaratmış olur?

Məsələyə münasibət bildirən Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru, hüquq müdafiəçisi Əhməd Şahidov qəzetimizə dedi ki, avqustun 12-də, səhər saatlarında, cəbhənin Füzuli rayonu istiqamətində Ermənistan ordusunun fərarilik etmiş hərbi qulluqçusu Kazaryan Araik Xaykoviç Azərbaycan əsgərləri tərəfindən saxlanıb: "İlkin dindirilmə nəticəsində müəyyən olunub ki, erməni hərbçisinin fərarilik etməsinə səbəb xidmət etdiyi hərbi hissədə baş verən özbaşınalıq, hərbi qulluqçulara qarşı edilən dözülməz və qeyri-insani münasibətdir. Azərbaycan tərəfində saxlanan erməni hərbçisi Araik Kazaryana tibbi yardım göstərilib, onun vəziyyəti normaldır. Azərbaycan Ombudsmanının nümayəndələri də erməni hərbçisinə baş çəkiblər, Araik Kazaryan saxlanma şəraitindən narazı deyil. Hərbi əsirlə Azərbaycan tərəfi beynəlxalq konvensiyalar çərçivəsində davranır: "2000-ci il təvəllüdlü Ermənistan Respublikası vətəndaşı, Ermənistanın Vayotsdzor vilayətinin Exegis kənd sakini Araik Kazaryan 8 aydır hərbi xidmətdə idi və komandirləri tərəfindən davamlı təqib və təzyiqlərə məruz qaldığından, qarşı tərəfə keçmək qərarına gəlib. Bu fakt Ermənistan ordusunda işgəncə hallarının olmasından xəbər verir. Məhz bu faktların aşkara çıxmasından narahat olan Ermənistan hakimiyyəti birbirinə zidd açıqlamalar verməkdədir. Amma əsir düşdüyü zaman Araik Kazaryanın üzərindəki işgəncə faktları əsl gerçəkləri ortaya çıxarmış oldu".

Faktla bağlı erməni cəmiyyətində ciddi müzakirələr getdiyini deyən hüquq müdafiəçisi Əhməd Şahidov Ermənistan hakimiyyətinin faktı gizlətməyə çalışdığını və bu məqsədlə Araik Kazaryanın ailəsinə təzyiqlərə start verdiyini deyib: "Araik Kazaryanın böyük qardaşı da Ermənistan ordusunda xidmət edir. Məhz bu hadisədən sonra onu hərbi qarnizona çağırıblar və istintaqa cəlb ediblər. Araik Kazaryanın qardaşı hazırda Dağlıq Qarabağdadır və sorğu-sual olunur. Araikin anası da yerli hakimiyyət orqanları tərəfindən davamlı təzyiqlərə məruz qalıb, nəticədə onun səhhəti pisləşib və xəstəxanaya aparılıb. Bütün bu təzyiq və təqiblər rəsmi İrəvanın Ermənistan ordusundakı işgəncə və şiddət faktlarını gizlətmək cəhdidir. Ermənistan hakimiyyəti Araik Kazaryanın ailəsini və yaxınlarını hər vəchlə susdurmağa çalışır. Ancaq, göründüyü kimi, onun qardaşı əsl həqiqəti danışmaqla Ermənistanın yalan siyasətini ifşa etmiş olub".

*"Onun qardaşı əsl həqiqəti danışmaqla Ermənistanın yalan siyasətini ifşa etmiş olub"*

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Gəncə hadisələrinin ildönümü, TANAP-ın açılışı ərəfəsində müəyyən radikal islamçı quvvələr, daxildəki bəzi radikal qüvvvələr və xaricdə yaşayan mühacirlər Azərbaycanda müəyyən təxribatlar törətməyə çalışdılar. Ölkəyə qarşı müəyyən planlar hazırladılar.**

*"Bu kimi məsələdə gərək millət vəkilləri öndə olsunlar"*

# Deputatların böyük hissəsi Azərbaycana qarşı plan hazırlayan radikallara münasibət bildirməkdən qaçır...

***Seyid Camal Əzimbəyli:** "Bəzi deputatların belə situasiyalarda bu cür passiv mövqe tutmalarını əsla normal qəbul etmək olmaz"*




Belə ki, sözügedən dağıdıcı qüvvələr sosial şəbəkələrin imkanlarından sui-istifadə edərək müxtəlif pozucu, təxribat xarakterli çağırışlar səsləndirməyə başladılar. Hər vasitə ilə ölkəni qarışdırmağa çalışdılar. Ancaq sözügedən dağıdıcı ünsürlərin bu yöndə cəhdləri fiaskoya uğradı.

Azərbaycan xalqı, ölkənin ziyalıları, media təmsilçiləri və digərləri bu təxribatlara öz sərt münasibətini bildirib ortaya mövqe qoydular. Fəal vətəndaş mövqeyi ortaya qoymaqla dövlətçiliyin yanında olduqlarını göstərdilər. Bu davranışları ilə Azərbaycanda təxribat törətmək istəyən qüvvələrin niyyətlərini puç etdilər.

Ancaq bütün bu proseslərdə diqqətçəkən məqam ondan ibarətdir ki, bir çox deputat Azərbaycana qarşı plan hazırlayan radikallara qarşı öz münasibətini bildirmədi. Mediada bununla bağlı fikirlərini bildirib mövqe ortaya qoymadılar. Faktiki olaraq, açıq-aşkar passiv mövqe tutdular. Hansı ki, onların daşıdığı statusu, seçki yolu ilə seçildiklərini nəzərə alsaq, bu çox vacib idi. Ancaq bu baş vermədi. Dəfələrlə media təmsilçiləri bir sıra deputatların mətbuatdan yayındıqlarını gündəmə gətiriblər. Müxtəlif tədbirlərdə niyə bu məsələlərlə bağlı fəallıq göstərmədikləri soruşulduqda, bu haqda danışmaq istəmədiklərini deyirlər. Yalnız bəzi fəal olan və tanınmış deputatlar radikalların planlarına qarşı mətbuatda mövqe ortaya qoyub münasibət bildirdilər.

Onu da qeyd edək ki, qeyri-rəsmi məlumatlara görə, bəzi deputatlar sözügedən məsələlərdə fəal olmamalarını müxtəlif beynəlxalq qurumlarda təmsil olunduqları ilə əsaslandırırlar. Məsələ ondadır ki, həmin deputatlar NATO Parlament Assambleyasında, AŞPA-da və digər beynəlxalq qurumlarda təmsil olunurlar. Guya onların deyilənlərlə bağlı münasibət sərgiləmələri həmin deputatların manevr imkanlarını məhdudlaşdırır. Ölkəyə qarşı dağıdıcı mövqedən çıxış edən qüvvələrə qarşı mövqe ortaya qoymaq haçandan beynəlxalq qurumlarda manevr imkanlarına mane olur? Nə dərəcədə doğrudur ki, belə məsələlərdə səssiz mövqe tutmaq? Ümumilikdə, sözügedən məsələdə bəzi deputatların passiv mövqe sərgiləməsini normal saymaq olarmı?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, bir çox deputatın sözügedən məsələlərlə bağlı passiv mövqe tutması heç bir məntiqə sığmır: "Bəzi deputatların belə situasiyalarda bu cür passiv mövqe tutmalarını əsla normal qəbul etmək olmaz. Həqiqətən də belə mənzərənin ortada olması olduqca təəssüfləndiricidir. Müəyyən millət vəkillərinin bütün bunları sanki görməzdən gəlmələrinin heç bir siyasi, mənəvi və hüquqi əsası yoxdur. Əksinə, belə məsələlərdə gərək bütün deputatlar fəal olsunlar. Azərbaycan dövlətinə və dövlətçiliyinə qarşı yönələn istənilən təhdidlərə, bu kimi çağırışlara gərək deputatlar son dərəcə həssas yanaşsınlar. Düzdür, bu birbaşa o anlama gəlmir ki, sözügedən deputatlar dövlətçiliyə qarşıdır. Belə deməzdim, amma Gəncə hadisələrinin ildönümü ilə əlaqədar müəyyən radikal qüvvələrin fəallaşması fonunda, bir sıra deputatların susması qəbul ediləsi hal deyil. Bunun heç bir tutarlı əsası yoxdur. Ona görə də mən bunu qəbul etmirəm və hesab edirəm ki, dövlətimizə qarşı hansısa təhlükəli xarakterli çağırışlar səslənəndə hər bir millət vəkili buna qarşı münasibət bildirməli, ortaya mövqe qoymalıdır. Bu kimi məsələdə gərək millət vəkilləri öndə olsunlar".

***Vidadi ORDAHALLI***



# Əsəd Türkiyənin hərbi bazasını mühasirəyə saldı

*7 il sonra Hama əyaləti tam ələ keçdi*

**Xan Şeyxunu ələ keçirən Suriyanın rejim qüvvələri irəliləyişini davam etdirir. Baki-xeber.com xəbər verir ki, "Reuters" agentliyi Bəşər Əsəd rejiminin Hama əyalətinin şimalını da ələ keçirdiyi barədə məlumat yayıb.**

Bununla Əsəd rejimi 7 ildən sonra Hama əyalətini tam nəzarət altına alıb.

Qeyd edək ki, rejim Xan Şeyxun şəhərini ələ keçirmək üçün bir neçə gün əvvəl İran dəstəkli silahlı qruplar, Rusiya və muzdlu əsgərlərin d?st?yil? əməliyyat başlatmışdı. Şəhərə hücum əməliyyatına Rusiya havadan dəstək verirdi.

Günlərlə davam edən qarşıdurmalardan sonra rejim və dəstəkçiləri şəhəri mühasirəyə almışdı, avqustun 22-də isə şəhər mərkəzi tam ələ keçirilib. Xan Şeyxunun ələ keçirilməsindən sonra şəhərin cənubundakı Morik və Kefer Zita qəsəbələri mühasirəyə düşüb.

İdlibin c?nubundakı Xan Şeyxun şəhəri 2014-cü ild?n ilk dəfə rejimin nəzarətinə keçib.

Bu gün də Xan Şeyxunda irəliləyən rejim qüvvələri və dəstəkçiləri Morek qəsəbəsində olan Türkiyə hərbi bazasını tam mühasirəyə alıb. Burada Astana razılaşması çərçivəsində Türkiyənin nəzarət bölgəsi yerləşir.

Məsələ ilə bağlı Rusiya və Türkiyə prezidentlərinin telefon danışığı olub. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı zamanı rejimin İdlibdəki atəşkəs pozuntuları və hücumlarının böyük bir humanitar böhrana səbəb olduğunu, bu hücumların Suriyadakı həll prosesinə zərər verdiyini və Türkiyənin milli təhlükəsizliyi üçün ciddi bir təhdidə çevrildiyini söyləyib.

Astana razılaşmasını alt-üst edən Xan Şeyxunun işğalını, gözlənildiyi kimi, Rusiya çox məmnuniyyətlə qarşıladığını son açıqlamasında dilə gətirib. "Əlbəttə, qruplar üzərində bu cür zəfərlər məmnuniyyətlə qarşılana bilər, terrorçular və terrorçu qruplarla mübarizənin bütün istiqamətlərdə davam edəcəyi açıqlanmışdı" - Kremlin sözçüsü Dmitri Peskov Xan Şeyxunun işğalından sonra deyib.

Rusiya Xarici İşlər Nazirliyi isə, nə qədər maraqlı olsa da, hələ də İdlib razılaşmasına sadiqlikdən danışır: "Türkiyə ilə əldə etdiyimiz İdlib razılaşmasına bağlı qalınması önəmlidir. Olub bitənlərlə bağlı Türkiyə ilə təmasdayıq".

Rusiya, İran dəstəkli silahlı qruplar, rejimin son hücumları başlayandan sonra isə 112 min mülki şəxs Xan Şeyxundakı evl?rini t?rk etm?k m?cburiyy?tind? qalıb. Hazırda şəhər mərkəzində mülki şəxsin qalmadığı bildirilir.

Xan Şeyxun 2017-ci ilin aprel ayında B?ş?r ?s?d rejiminin t?şkil etdiyi və 100 nəfərin ölümünə səbəb olan kimy?vi hücumdan sonra dünyanın günd?mini z?bt edib.

**Ermənistanda Amulsar ətrafında yaranan narazılıq davam edir. Hətta bu fonda proseslərin həmin ölkənin parlamentini parçalamaq kimi effektə malik olduğu bildirilir. Qeyd edilir ki, hətta yeni parlamentdə Paşinyanı dəstəkləyən fraksiyalar belə bu məsələdə Baş nazirin mövqeyi ilə razılaşmırlar. Faktiki olaraq, ölkədə parlament böhranının yarana biləcəyinə dair fikirlər səslənir.**

# Ermənistan vaxtsız parlament seçkilərinə doğru gedir - Amulsar və Rusiya problemi Paşinyanı çaşdırıb...



Artıq hakimiyyətə yaxın olan erməni KİV-i ölkədə növbədənkənar parlament seçkilərinin keçiriləcəyinin qaçılmaz olduğuna dair təbliğata start verib. Bildirilir ki, belə davam edən parlament böhranı siyasi böhrana çevrilə bilər. Qeyd edilir ki, bu həm də hakimiyyət üçün parlamentdəki balansı yaratmaq üçün gözəl şans sayıla bilər. Çünki Ermənistanda Rusiyaya bağlı olan qüvvələr də təkidlə növbədənkənar parlament seçkilərinin keçirilməsinin zəruriliyini vurğulayırlar. Erməni analitiklər qeyd edirlər ki, bununla hakimiyyət Rusiyaya bağlı olan qüvvələrin də parlamentdə təmsil olunmasına şərait yarada bilər və lazım olan balansı qorumaqla Moskva ilə aradakı narazılığı nisbətən yumşaltmağa nail olar. İndi hakimiyyətin bununla bağlı hansı addımlar atacağı və bunun daxildə necə qarşılanacağı maraqlıdır.

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, daha öncə bizim qəzetə küçələrdən hakimiyyətə gəlmiş Paşinyan və komandasının dövlət aparatının idarəçiliyində səriştəsiz, populist biri kimi hər keçən gün daha çox nüfuz itkisi gətirməsi, sosioloji araşdırmalar və sorğuların nəticəsinə görə inqilabın əvvəlində Paşinyanın arxasınca gedən kütlənin xəyal qırıqlığına uğraması haqqında geniş danışıb: "Ermənıstanda sıravi erməni vətəndaşa aydındır ki, ölkəni səriştəsiz və boşboğaz bir Baş nazir idarə edir.

Ermənistanda son parlament seçkiləri inqilab sonrası Paşinyana loyal çoxluğun, xüsusilə müxtəlif iqtisadi qrupların təmsilçiliyi ilə nəticələndi. Paşinyan istər komandası, istərsə də parlamentdə idarəçilik siyasəti əsasında qruplar arasında balans manevri durur, bu isə belə işlərdə təcrübəsiz Paşinyan üçün çox da asanlıqla alınmır və artıq bir neçə aydır Baş nazirin bu balansa nəzarət edə bilməməsi aydın sezilir.

Digər tərəfdən, hələ İrəvan küçələrində etirazlara rəhbərlik edən Nikol Paşinyanın həyat yoldaşı tərəfindən ölkədə maraqları və gözləntiləri olan transmilli korporasiyaların nümayəndələri ilə görüşləri və götürdükləri öhdəliklə-ri mövcuddur.

Paşinyanın seçki kampaniyası ərəfəsi komandasının sıx kontaktda olduğu biznes dairələr və onlarla razılaşmalar mövcuddur. Bunlardan da biri "Lydian Armenia" şirkətidir və bu şirkət Amulsar qızıl yataqlarına 2016-cı və 2019-cu illərdə 400 milyona yaxın maliyyə yatırıb.

Bu şirkətlə yeni hökumət Amulsar dağındakı qızıl yatağının işlənməsi ilə bağlı çərçivə razılaşma sənədi imzalayıb. Müqavilənin şərtlərinə görə, Ermənistan hökuməti şirkətlə danışıqları ləğv edəcəyi halda, şirkətin investisiya formasında yatırdığı 400 milyon dollarlıq maliyyədən kənarda həm də 700 milyon dollar cərimə ödəməlidir. Beynəlxalq Arbitraj Məhkəməsinə müraciət olunacağı halda bu məbləğ daha çox olacaq. Bu isə o deməkdir ki, Ermənistanı da bu günlərdə Qərbi Afrika ölkəsi Nigeriyanın aqibəti gözləyir. Xatırladım ki, Nigeriya da qaz yataqlarının işlənməsi ilə bağlı İngiltərə şirkəti ilə ləğv etdiyi sazişə görə arbitraj məhkəməsi tərəfindən 9 milyard dollar cərimə edilmişdi.

Cərimənin tətbiqi kiçik büdcəli Ermənistan üçün defolt təhlükəsi yaradacaq ki, bir ölkə bu yükün altından çətinliklə çıxacaq".

Politoloqun sözlərinə görə, ölkədə dəyərli metal sənayesi də daxil sənaye və enerji şirkətlərinin 70 % nin səhmi Rusiyaya məxsusdur, bu isə bu dövləti avtomatik həm də payçı edir: "Parlamentin buraxılması belə, Paşinyan və komandasına yardım etməyəcək. Parlamentin buraxılması ideyası Baş nazirin həyat yoldaşının komandası adlandırılan qərbpərəst, Soros uşaqlarının oliqarxiya və rusiyayönümlü qüvvələrlə biznes mövqeləri və maraqlar üzərindən mübarizəsinin növbəti fazası olacaq. Paşinyan bunu anladığı üçün, həmin planın reallaşmasına imkan verməyəcək. Onsuz da mövqeləri laxlamış hakimiyyət nöbədənkənar parlament seçkilərinin fonunda daha da dalana dirənmiş olar. Paşinyan Rusiya ilə münasibətləri başqa kontekstdə normallaşdırmağa çalışacaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistan KİV-in yaydığı məlumata görə, avqustun 22-də bu ölkənin hökuməti "tanınmamış Qarabağda seçkiləri izləmək üçün ilk dəfə olaraq xarici QHT-lərə vəsait ayırdı". Üstəlik, bu "görünməmiş bir qərar" kimi qələmə verilir. Onların təbirincə, "Ermənistan hökuməti həmişə demokratiya üçün pul istəmək rolunda olubsa, indi donor rolunda çıxış edir".**

# Ermənistan xaricdə seçki pulu dilənir, qondarma "Artsax"da seçki maliyyələşdirir...

## *Məhəmməd Əsədullazadə: "ATƏT-ın Minsk Qrupu həmsədrlərinin bu prosesə seyrçi qalması belə bir formatın artıq tükənməsi deməkdir"*



Ermənistan mediasının yaydığı bu məlumatlarla bağlı açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bildirib ki, Azərbaycan ərazilərini işğal edən Ermənistan ilk dəfə deyil ki, bu ərazilərdə "seçkilər" və ya "referendum" adlandırdığı müxtəlif tamaşalar keçirir.

L.Abdullayeva qeyd edib ki, onların nəticələrinə görə, beynəlxalq ictimaiyyət yekdilliklə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək, qanunsuz rejimin, eləcə də onun tərəfindən keçirilən hər hansı bir "seçki"nin tanınmaması ilə bağlı prinsipial mövqeyini daim bəyan edir: "Azərbaycanın işğal olunmuş ərazilərində "seçkilər"in izlənməsi üçün vəsait ayıran Ermənistan hökuməti bir daha ölkəmizin Dağlıq Qarabağ bölgəsinə və ona bitişik inzibati rayonlarına nəzarəti həyata keçirdiyini etiraf etmiş olur və bununla da 2015-ci ildə Avropa İnsan Hüquqları Məhkəməsinin "Çıraqovlar və digərləri Ermənistana qarşı" işi üzrə qəbul etdiyi qərarın müvafiq müddəalarının doğru olduğunu təsdiqləyir".

Bütün bunlarla yanaşı, məsələnin gülünc tərəfi odur ki, Ermənistan bir dövlət olaraq hər zaman pul dilənməklə məşğul olub. Rəsmi səviyyədə bir sıra dövlətlərdən, beynəlxalq maliyyə qurumlarından pul almaqdan ötrü min dona girən, müxtəlif xeyriyyə marafonlarından kömək uman Ermənistanın digər dövlətin ərazisində qanunsuz olaraq xarici QHT-lərə vəsait ayırması gülüncdür. Gülünc olmaqla yanaşı, beynəlxalq hüquqa ziddir. Ancaq çox qəribədir ki, Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçi olan ATƏT-in Minsk Qrupu bunu sükutla seyr edir. Halbuki, Ermənistanın bu addımı nümayişkəranə şəkildə beynəlxalq hüququn pozulması deməkdir.

ki, rəsmi İrəvan danışıqları bu kimi fəaliyyəti ilə sabotaj edir. Burada keçirilən qondama "seçkilər" terrorçuların legitimlik qazanmasına gətirməyəcək. Yalnız Ermənistan bununla

*"Sözügedən qurum birbaşa müdaxilə edib işğalçı ölkənin belə fəaliyyətlərinin qarşısını almalıdır"*

Maraqlıdır, Minsk Qrupu buna niyə susur?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadə buna bir necə aspektdən yanaşdı: "Ermənistanın işğal olunmuş ərazilərdə qondarma "seçkiyə" vəsait ayırması bir daha göstərir münaqişədə üçüncü tərəf yaratmağa cəhd edir. Azərbaycan xarici bəzi QHT-nin burada müşahidə aparmasına diqqət etməlidir və bəzi ölkələrə nota verməlidir. Qeyd edim ki, ATƏT-ın Minsk Qrupu həmsədrlərinin bu prosesə seyrçi qalması belə bir formatın artıq tükənməsi deməkdir. Hansı ki, sözügedən qurum birbaşa müdaxilə edib işğalçı ölkənin belə fəaliyyətlərinin qarşısını almalıdır. Münaqişənin həlli istiqamətində bu kimi faktorlara qarşı mübarizə aparmalıdır.

Görünən odur ki, ATƏT bunda maraqlı deyil. Hesab edirəm ki, Ermənistan bu gün az büdcə vəsaitli ilə belə bir oyun oynayırsa, bu, Paşinyanın Qarabağdakı erməniləri öz əhatəsində birləşdirmək cəhdidir. Belə olan təqdirdə bu, danışıqlar prosesində Paşinyanın bir avantürasıdır və belə bir siyasi gediş Qarabağda növbəti hərbi əməliyyatlara rəvac verəcək. Beynəlxalq təşkilatlar çalışmalıdırlar k, Cənubi Qafqazda konfliktlər həll edilsin. Bunun üçün də münaqişənin həllinə mane olan Ermənistana təzyiqlər edilməlidir".

***Vidadi ORDAHALLI***

# Paşinyanın "oktyabr planı" - ABŞ-ın şantaj olunmasında Ruhani kartından istifadə...

**Ermənistanda oktyabrın əvvəlində keçirilməsi planlaşdırılan Avrasiya İttifaqının sammiti ilə bağlı ciddi hazırlıqlar gedir. Artıq Ermənistan mediasında belə fikirlər səslənir ki, Paşinyan hökuməti, nəyin bahasına olursa-olsun, İran Prezidenti Ruhanini həmin sammitdə görmək istəyir. Hətta qeyd edilir ki, Paşinyan İran Prezidentinə belə bir dəvəti Qırğızıstanda olarkən edib.**

Ermənistan Ruhaninin sammitdə iştirakını bu yaxınlarda təxirə düşən Rusiya-İran-Azərbaycan formatındakı görüşlə də əlaqələndirməyə cəhd edir. Ancaq görünən budur ki, Ermənistan İrana heç də Tehranın cazibəsinin güclü olduğuna görə önəm vermir. Ondan və xüsusilə də Ruhanidən ABŞ-a qarşı şantaj vasitəsi kimi istifadəyə çalışır.

Məlumdur ki, ABŞ-la İranın münasibətləri çox gərgindir. Ermənistanın İranla yaxın əlaqələri mövcuddur, həm də qonşu ölkədirlər. ABŞ İranın maksimum təcridində maraqlıdır. Bununla yanaşı, ABŞ Ermənistanın yeni hakimiyyətini də özünə yaxın buraxmır. Nikol Paşinyan başda olmaqla, başqa erməni rəsmilərinin də ABŞ-da yüksək səviyyədə qəbul olunmaq cəhdlərinin heç biri alınmayıb. İndi Ermənistanın Rusiya ilə münasibətlər fonunda həm də İranla dostlaşması ABŞ-ın maraqlarına uyğun deyil. Ermənistan bilir ki, belə gedişatlar ABŞ-ı qıcıqlandıra bilər. Buna görə də Ruhanidən ABŞ-a qarşı bir şantaj aləti kimi istifadəyə cəhd göstərir. Ermənistanın bu hiyləgər gedişi səmərə verəcəkmi?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, cari ilin oktyabr ayının ilk həftəsində İrəvanda Avrasiya İqtisadi Birliyinə üzv olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə növbəti sammit keçiriləcək: "Bundan əvvəl Qırğızıstanda keçirilən sammitdə Ermənistanın Baş naziri Nikol Paşinyan İran Prezidenti Həsən Ruhanini İrəvan sammitinə dəvət etmişdi. Ayrıca, bu sammitdə Sinqapurun Baş nazirinin də iştirak edəcəyi ehtimal edilir. Sinqapur rəsmilərinin açıqlamalarından məlum olur ki, oktyabr ayına qədər Avrasiya İqtisadi Birliyi ilə azad ticarət bölgəsi haqqında müqavilə imzalanarsa, İrəvan sammitində iştirak edəcəklər. Ancaq hələlik Avrasiya İqtisadi Birliyi ilə Sinqapur arasında müzakirələrin hansı yerdə olduğu haqqında hər hansı ciddi məlumat yoxdur. Bu məsələdə söz sahibi əsasən Rusiyadır və Sinqapurun sammitdə iştirak etməsi hələ ki, dəqiqləşdirilməyib.

Ermənistan KİV-nin məsələyə münasibətində ön plana çıxardığı bir məsələ də Azərbaycan, İran və Rusiya prezidentlərinin Soçidə bir araya gəlmədən əvvəl, (əslində, bu görüş avqustun 14-də baş tutmalı idi, texniki səbəblərə görə Rusiya görüşün tarixini qeyri-müəyyən bir zamana qədər təxirə saldı), Ermənistan, İran və Rusiya prezidentlərinin İrəvanda bir araya gələrək tərəflər arasındakı iqtisadi və siyasi məsələləri müzakirə etmələri olub.

Ermənistan KİV-i bundan təbliğat məqsədilə istifadə etsələr də, İrəvan sammitinin Ermənistan-ABŞ münasibətlərində yeni problemlərə yolaçma ehtimalı olduqca yüksəkdir. Xüsusilə ABŞ hökumətinin İranı yalnızlaşdırmağa yönəlik siyasət həyata keçirdiyi bir ərəfədə Ermənistanın İranı Avrasiya İqtisadi Birliyinin sammitinə dəvət etməsi diqqətlə müşahidə edilir".

## *Hatəm Cabbarlı: "Heç şübhəsiz, ABŞ Ermənistanın bu təşəbbüsü ilə bağlı izahat tələb edəcək"*



Ekspertin sözlərinə görə, İran Prezidenti Ruhaninin Paşinyan tərəfindən İrəvan sammitinə dəvət edilməsi Ermənistanın xarici siyasətinin şaxələndirilməsi kimi dəyərləndirilsə də, İranla Avrasiya İqtisadi Birliyi arasında iqtisadi əlaqələrin qurulması çoxdandır müzakirə edilsə də, hələlik ciddi bir irəliləmə yoxdur: "Bunu, əslində, Ermənistanla İran arasında iqtisadi münasibətlərin İran baxımından cəlbedici olmaması səbəbilə Ermənistanın bir şəkildə İranı da Ermənistan üzərindən Avrasiya İqtisadi Birliyi ilə münasibətlərinə və dolayısı ilə Ermənistanla əlaqələrinə yeni bir canlılıq gətirmə təşəbbüsü kimi görə bilərik.

Paşinyan hakimiyyətə gəldikdən sonra Rusiya ilə daha məsafəli davranmağa çalışaraq ABŞ və ümumilikdə, Qərb dünyasının dəstəyini almağı hədəfləsə də, görünən odur ki, Rusiya ilə münasibətlərinin zədələnməsinə baxmayaraq, ABŞ və Qərb dünyasından aldığı dəstək bu zədəni kompensasiya etməyə yetərli deyil. ABŞ-İran münasibətlərinin gərginləşdiyi son zamanlarda Paşinyanın İran Prezidenti Ruhanini bölgəsəl əhəmiyyət daşıyan belə bir sammitə dəvət etməsi, əlbəttə, ABŞ tərəfindən məmnunluqla qarşılanmayıb. ABŞ-la Ermənistan arasındakı münasibətlər bəlkə də son illərin ən aşağı səviyyəsinə enib. ABŞ hökumətinin "Minilliyin çağırışı" proqramından və digər proqramlardan Ermənistana və qondarma rejimə ayrılan maliyyə yardımlarını dayandırması Ermənistanı qonşularının ümidinə qalmağa məcbur edir. Heç şübhəsiz, ABŞ Ermənistanın bu təşəbbüsü ilə bağlı izahat tələb edəcək.

Avrasiya İqtisadi Birliyi bölgəsəl təşkilatdır. Birliyin sərhədlərinin genişlənməsi özlüyündə bəzi iqtisadi və maliyyə problemlərini də bərabərində gətirəcək.

Ümumiyyətlə, Avrasiya İqtisadi Birliyi üzv dövlətlərin belə iqtisadi maraqlarına cavab vermədiyi halda, Birliyin sərhədlərinin genişləndirilməsinə yönəlik təşəbbüslərin necə nəticə verəcəyi hələlik məlum deyil".

***Məhəmmədəli QƏRİBLİ***



# Pakistan beynəlxalq ictimaiyyətə çağırış etdi - Hindistanın Kəşmirdə yaxınlaşan soyqırımının qarşısını alın...

**Pakistan Baş naziri İmran Xan Hindistanın işğal etdiyi Kəşmirdə gözlənilən soyqırım təhlükəsinin qarşısını almaq üçün beynəlxalq ictimaiyyəti lazımi tədbirlər görməyə çağırıb.**

Baki-xeber.com xəbər verir ki, İmran Xan sosial media hesabında yaydığı açıqlamada Hindistan hökumətinin Kəşmir xalqını bütün hüquq və azadlıqlardan məhrum etdiyini vurğulayıb.

Xan milyonlarla kəşmirlinin Hindistanın işğalı, təcavüzü və zorakılığı ilə qarşı-qarşıya olduğunu, Hindistan işğalçı qüvvələrinin, Qurban bayramı da daxil olmaqla, bölgə xalqının ibadətlərinə maneçilik törətdiyini bildirib.

İmran Xan beynəlxalq ictimaiyyətə səslənərək deyib: "Dünya Hindistanın işğalı altındakı Kəşmirdə yaxınlaşan soyqırım təhlükəsinin qarşısını almaq üçün hərəkətə keçməlidir".

Qeyd edək ki, avqustun 5-də Hindistan Cammu Kəşmirin xüsusi statusunu konstitusiyanın 370-ci maddəsini ləğv edərək əlindən alıb.

**Rusiya və Ermənistan arasında gərginləşən münasibətlər fonunda Miqran Poqosyan ətrafında yaşananlar iki ölkənin əlaqələrinin daha ziddiyyətli məcrada inkiaşfını istisna etmir. Xatırladaq ki, İrəvanın təkidli tələblərinə baxmayaraq, Rusiya hökuməti hələ də Ermənistanın "banan kralı" olaraq tanınan Miqran Poqosyanı İrəvana verməkdən imtina edir.**

# Moskvadan İrəvana "Poqosyan təhqiri" - erməni politoloqlar "zəncir gəmirir"...



Ermənistanın "İrates" qəzeti Rusiya hökumətinin bu addımı İrəvana etibar etmədiyi üçün atdığını bildirib:

Qeyd edək ki, Miqran Poqosyan Ermənistan Ədliyyə Nazirliyinin Məhkəmə Aktlarının İcrası Xidmətinin keçmiş rəhbəridir. O, uzun illər Ermənistanda "banan kralı" kimi tanınıb. General-leytenant olan Poqosyan hazırda Moskvada saxlanır. Bir müddət əvvəl isə Poqosyan Rusiyadan siyasi sığınacaq istəyib. Onu da xatırladaq ki, Miqran Poqosyanın adı "Panama sənədləri"ində açıqlanmışdı və onun xaricdə biznes aktivlərinin olduğu üzə çıxmışdı. Qanunları pozmaqda, korrupsiyada və digər cinaətlərdə şübhəli bilinən Poqosyanın təhvil verilməsi barədə Ermənistanın vəsatətini Rusiya daha əvvəl rədd edib. Erməni politoloq Levon Şirinyanın sözlərinə görə, Rusiya Ermənistanı bu şəkildə alçaldaraq ona məhəl qoymur və heç bir şey edə bilməzsən, istədiyimizi edəcəyik deyir: " Poqosyan Soljenitsındır, Rusiya niyə təhvil vermir? Bu hörmətsizlikdir, başqa adı yoxdur. Burada heç bir siyasi təqib yoxdur. Həmin şəxs, bu ittihamın əsaslı olub-olmamasından asılı olmayaraq, xüsusi cinayətlərdə ittiham olunur. Ermənistan hakimiyyəti vəziyyəti başa düşməli və sözlə deyil, məzmunca hərəkətə keçməlidir. Bu vəziyyətdə nə qədər qalsaq, bir o qədər də bizi bir şey yerinə qoymayacaqlar". Şirinyan xatırladır ki, barəsində cinayət işi açılan digər general Mikayel Arutyunyanın işində Rusiya hakimiyyəti onu, Rusiya vətəndaşı olduğunu əsas gətirərək, təhvil verməkdən imtina etdi, indiki vəziyyətdə isə Ermənistan vətəndaşından söhbət gedir: "Bu hörmətsizlikdir. Biri birbaşa, digəri dolayı əlaqəlidir deyə, öz qullarını qorumaq üçün hər bəhanədən istifadə edirlər. Burada başqa məsələ də var, söhbət iqtisadi cinayətlərdən getdiyinə görə Ermənistan Rusiya üçün daha çətin bir nöqtəyə çatıb. Rusiya həmin xalqları öz iqtisadi açarları ilə öz arabasında saxlayır və indi biz bu sinirə toxunmuşuq. Burada biz oliqarxiya, iqtisadi, kriminal elementlərlə üzüzə gəlmişik. Bunun üçün Ermənistan hökuməti vəziyyəti başa düşməli, hörmətlə işləməli və ölkəni nizama gətirməlidir".

O hesab edir ki, ölkəsindəki hakimiyyət özü də nə etdiyini bilmir, gah Konstitusiya Məhkəməsini dağıdır, gah da yığır: "Dövlət kimi özünü təqdim edəndə məsələlər həll ediləcək. Rusiya bu cür ittiham edilən şəxsin İsrailin tələbi üzrə təhvil verilməməsinə cürət edə bilərmi? Əksinə, sitat gətirər və deyərdi ki, mən generalın şərəfini qoruyuram, çünki həmin şəxs general rütbəsini ləkələyib. Ölkənin nüfuzu həm də inkişaf səviyyəsi, təşkili, iqtidarların ləyaqəti ilə bağlıdır. Heç bir problemi həll edə bilmirlər. Bəs biz ruslarla necə müttəfiqik?". Ermənistanın Rusiya ilə çox yaxşı münasibətlərinə dair deyilənlərə gəlincə, onun cavabı belə olub: "Yaxşıdır, bizdən nə istəyirlərsə veririk. Hakim elita da ziyalı, ləyaqətli olmalıdır. Onlarla necə bu cür davrana, danışa bilərlər? Yaxşı münasibət o halda ola bilərdi ki, Rusiya hər hansı bir məsələdə bizə doğru addım atdığını ortaya qoysun. Haçansa Rusiyanın bizə doğru addım ataraq üzr istədiyi, belə bir şey olmamalıdı dediyi bir məsələni xatırlamıram, belə bir hal olmayıb". O, Kremlin bundan sonra da İrəvanı alçaltmaqda davam edəcəyini vurğulayıb.

Digər erməni politoloq Haqik Ambaryan da məsələyə sərt müstəvidən yanaşır: "Rusiya tərəfinin artıq Poqosyanı təhvil verməyəcəyi məlum olub. Niyə Rusiya tərəfi belə davranır və doğrudanmı təhvil verilməməsinin səbəblərini izah etməyə ehtiyac yoxdur? Ermənistan hakimiyyəti daim ikitərəfli münasibətlərdə heç bir problem olmadığını deyir. Bunun realda həqiqətən belə olması arzu edilsə də, təəssüf ki, reallıqdan çox uzaqdır. İnqilabdan 1 il 3 ay keçsə də, Rusiyanın hər hansı bir vəzifəli şəxsi konkret qarşılıqlı münasibətlər çərçivəsində Ermənistana səfər etməyib. Rusiyanın baş naziri Medvedyevin Ermənistana səfər etməsi isə qarşılıqlı münasibətlər çərçivəsində deyil, Avrasiya iqtisadi əməkdaşlıq təşkilatının iclasında iştirak etməsi məqsədi daşıyıb. Beynəlxalq aləmdə iki ölkə arasındakı münasibətlərin nə vəziyyətdə olduğu hamıya məlumdur. Rusiya - Ermənistan münasibətlərinin yaxşı olması haqqında bəyanatlar həqiqəti əks etdirmir. Bu fonda Rusiyada işləyən ermənilərə qarşı problemlər yaratmağa başlayarlarsa, bunun nəticəsi olduqca pis olacaq. Təsəvvür edin, Rusiyada işləyən ermənilər geri - Ermənistana qaytarılarsa, ölkədə sosial partlayış baş verə bilər. Bütün bu qeyd olunanların baş verməməsi, məhz "yumşaq güc"ün tətbiq edilməsi deməkdir. Sosial şəbəkələrdə anti-Rusiya meylli çıxış edən insanlar baş verə biləcəklərin nəticəsini dərk etmir. Anti-Rusiya təbliğatı genişlənərsə, Ermənistana daxil olan 1 milyard dollar həcmindəki köçürmələrin davamiyyəti kəsiləcək. Poqosyan məsələsində isə Rusiya göstərmək istəyir ki, Ermənistan hakimiyyəti ilə aparılan danışıqlardan razı deyil. Bu, Rusiya tərəfindən Ermənistan hakimiyyətinə verilən narazılığa dair dəqiq mesajdır. Poqosyanın təhvil verilməməsinin səbəblərinin Rusiya tərəfindən heç açıqlanmaması da münasibətlərin aşağı səviyyədə olmasından xəbər verir. Rusiya tərəfinin yaydığı məlumatdan yalnız istəmədikləri və təhvil vermədiklərini başa düşmək mümkündür". "Politik.am" nəşri isə yazır ki, Rusiya hüquq-mühafizə orqanlarının Poqosyanla bağlı qərarı Ermənistanın yeni hakimiyyəti üçün sillədir: "Ruslar bu qərarla Ermənistanda siyasi təqib olduğunu deyir. Bu, həmçinin, erməni-rus münasibətlərinin indiki səviyyəsindən xəbər verir. Hökumət rəsmilərinin iddialarına baxmayaraq, bu münasibətlər artıq müttəfiqlik xarakteri daşımır və Rusiya tərəfi bütün bunları gizlətmir. İndi Ermənistan hakimiyyətində bu məsələdən nəticə çıxarmaq və bundan sonra reallığa əsaslanaraq xarici siyasət planlarını tərtib etmək qalır. Onların öz təbliğatının təsiri altında qalmamaları və Ermənistan-Rusiya münasibətlərinin parlaq olduğuna əmin olmamaları vacibdir". Hesab edilir ki, qarşıdakı dövr ərzində də Rusiya-Ermənistan münasibətləri pisləşməkdə davam edəcək.

***Nahid SALAYEV***

**Mərkəzi Asiya ölkələrinin dünya bazarlarına çıxışında yaxın tezlikdə Azərbaycanın oynadığı rolun əhəmiyyətli dərəcədə artması gözlənir. Belə görünür ki, sözügedən regionda yerləşən ölkələr qarşıdakı dövr ərzində istehsal etdiyi məhsulları dünya bazarlarına çıxarılmasında Azrəbaycandan əsas tranzit məkan qismində istifadə edəcək.**

# Avrasiyanın mühüm dəmir yolları şəbəkəsinin Azərbaycanla birləşməsinə çox az qaldı...




Bütün bunların əsas səbəbi İranla Azərbaycanın dəmir yolları arasında inkişaf edən əməkdaşlıq və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizidir.

Belə görünür ki, baş verənləri diqqətlə izləyən Mərkəzi Asiya ölkələri yüklərini İran, buradan isə Azərbaycan üzərindən daşımağa getdikcə daha çox maraq göstərir. İran isə bu fonda dəmir yolu sahəsində də Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi diqqət yetirir. İran Dəmir Yollarının prezidenti və idarə heyətinin sədri Səid Rəsuli də vurğulayır ki, ölkəsi ilə Azərbaycanın dəmir yolları arasında faydalı əməkdaşlıq əlaqələri mövcuddur. Rəsuli qeyd edir ki, Azərbaycan "Şimal-Cənub" dəhlizinin də tam olaraq formalaşmasında fəallıq göstərir. O nəzərə çatdırıb ki, məhz İranla Azərbaycanın dəmir yolu sahəsində əməkdaşlığı nəticəsində Asiya ilə Avropa dəmir yolu nəqliyyatı baxımından birləşəcək. Asiya ölkələri Avropaya, Avropa ölkələri isə Fars körfəzi sahillərinə və Cənub Şərqi Asiyaya çıxış əldə edəcək. Bu isə hər iki qitənin ticarət və iqtisadiyyatının inkişafına böyük təkan verəcək. İranın birinci vitse-prezidenti Eshaq Cahangiri də bildirir ki, yaranmış vəziyyətdə İran-Azərbaycan əlaqələrinin inkişafına heç kim maneə yarada bilməz. Onun sözlərinə görə, hazırda ölkələrimiz iqtisadi sahədə faydalı əməkdaşlıq əlaqələrini davam etdirir: "Şimal-Cənub" dəhlizi çərçivəsində əməkdaşlıq bütün region dövlətləri üçün əhəmiyyətlidir. Asiyadan Avropaya dəmir yolu ilə daşınan yüklərin tranzit olaraq İran və Azərbaycandan keçməsi qeyri-neft sektorunun inkişafına zəmin yaradacaq. Qəzvin-Rəşt-Astara dəmir yolunun Qəzvin-Rəşt hissəsi istismara buraxılıb. Hazırda Rəşt-Astara hissəsinin tikintisi davam edir. Bu yolun tikintisində Azərbaycan da iştirak edir. Hazırda hər iki dövlət bir neçə birgə iqtisadi layihə həyata keçirir". İndilikdə isə Mərkəzi Asiya ölkələrinin İran üzərindən məhsullarını Azərbaycan vasitəsilə dünya bazarlarına çıxarması üçün bütün münbit şərait mövcuddur. Elə qeyd olunan fonda bu günlərdə İran, Türkmənistan, Qazaxıstan və Azərbaycan dəmir yolu sahəsində əməkdaşlıqla bağlı müzakirələr aparıb.

Xatırladaq ki, Azərbaycan dəmir yolları tərəfindən Azərbaycanın Astara stansiyası ilə İranın Astara stansiyası arasında 9,7 kilometr dəmir yolu xətti və iki ölkə sərhədində 82,5 metr uzunluğu olan körpü inşa edilib. Bundan başqa, ikitərəfli razılaşmaya əsasən "Azərbaycan Dəmir Yolları" QSC İran ərazisində 35 hektar ərazidə yük terminalı inşa edərək, onu 25 illik müddətə və sərhəddən terminaladək tikdirdiyi 1,4 kilometr uzunluğunda dəmir yolunu 15 illik müddətə icarəyə götürüb. Qeyd olunan terminalda quru yüklərin aşırılması artıq həyata keçirilir.

Bu maşrutun Qəzvin-Rəşt hissəsinin tikintisi tamamlanıb. Samur çayı üzərindən Samur (Azərbaycan) - Yaraq Qazmalar (Rusiya) avtomobil körpüsünün inşası isə davam etdirilir. Qeyd edək ki, İran-Türkmənistan sərhədində Uzun (Qazaxıstan)-Bərəkət (Türkmənistan)-Qorqan (İran) dəmir yolunun istismara verilməsinin təntəli açılışı 2014-cu ilin dekabrında keçirilib, Qazaxıstan və Türkmənistan hissəsinin tikintisi isə 2013-cu ilin mayında başa çatıb. Dəmir yolunun uzunluğu 925 kilometrdir. Dəmir yolunun 85 kilometri İran ərazisindən keçir. Yolun türkmən sahəsinin uzunluğu 700 kilometr, qazax sahəsinin uzunluğu isə 140 kilometrdir.

Qazaxıstan-Türkmənistan-İran dəmir yolunun inşası barədə saziş 3 dövlət başçısı tərəfindən 2007-ci ildə imzalanıb. Tikinti işləri 2009-cu ildə başlanıb. Qazaxıstan-Türkmənistan-İran dəmir yolu beynəlxalq "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsidir. Bu layihənin təkmilləşdirilməsi ilə Çindən tutmuş Şərqi Avropaya qədər uzanan dəmir yolu marşrutundan istifadə imkanı yaranacaq. Ən əsası isə budur ki, dəmir yolu ilə daşınan yüklərin əsas hissəsi "Şimal-Cənub" çərçivəsində məhz Azərbaycandan keçəcək. Bununla Azərbaycanın tranzit gəlirləri artacaq, eyni zamanda ölkənin dəmir yolu şəbəkəsi daha böyük qovşağa birləşəcək. Bundan başqa nəzərə alaq ki, Azərbaycanın dəmir yollarının yaxın tezlikdə Transsibir magistralı ilə birləşməsi də gözlənilir. Artıq bu xüsusda Moskvada Azərbaycan və Rusiya dəmir yolları idarələrinin nümayəndələri arasında müzakirə aparılıb. Müzakirələrdə Rusiya ərazisindən keçməklə Çin, Yaponiya və Koreyadan yüklərin "Transsibir" magistralı ilə Azərbaycana, buradan isə Bakı-Tiflis-Qars dəmir yolu xəttilə Türkiyə istiqamətində daşınması məsələsi gündəmə gəlib. Məhz bu vəziyyət o deməkdir ki, Azərbaycan dəmir yolları dünya miqyasında böyük bir şəbəkənin mühüm halqalarından birinə çevrilir.

Qeyd edək ki, "Transsibir" magistralı dünyanın ən uzun dəmir yoludur. 9300 kilometrə yaxın bu yol Moskvanı Rusianın Uzaq Şərqi ilə birləşdirir və son məntəqəsi Vladivostok şəhəridir. "Rusiya Dəmir Yolları" ASC-nin baş direktorunun birinci müavini Aleksandr Mişarin də bu günlərdə belə bir açıqlama ilə çıxış etmişdi ki, Rusiya Azərbaycan və Gürcüstandan keçməklə Türkiyəyə, oradan da Avropaya çatdırılma məqsədilə yük daşımalarının, o cümlədən konteyner daşımalarının bir hissəsini "Transsibir" dəmir yolu xəttinə keçirməyi planlaşdırır: "Bu layihə reallaşdırılır. O, Azərbaycan-Gürcüstan-Türkiyə arasındakı razılığa əsasən həyata keçirilir. Söhbət axının bir hissəsini "Transsibir" magistralı üzrə Azərbaycan və Gürcüstandan keçməklə Türkiyəyə, oradan da Avropaya yönəltməyə imkan verəcək iki müxtəlif enlikli dəmir yolu xəttindən gedir".

Yuxarıda qeyd olunduğu kimi, dünyanın müxtəlif istiqamətlərinə uzanan bu dəmir yollarının əlaqələndirilməsində Azərbaycan artıq mühüm rol oynayır. Bu isə dəmir yolları ilə daşımalardan ölkənin böyük həcmdə gəlirlər əldə etməsi deməkdir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın hərbi üstünlüyü və erməni ordusunda deqradasiyanın son həddi - Ermənistanda narahatlığın iki əsas motivi...

**Ermənistanın mövcud hakimiyyətinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yürütdüyü siyasət bu gedişlə konfliktin hərbi müstəvidə həllini qaçılmaz edir. Məsələ burasındadır ki, rəsmi Bakı Nikol Paşinyan iqtidarına konfliktin çözümü istiqamətində konstruktiv addım atmaq üçün yetərincə vaxt verdi. Amma ötən 1 il 3 ay belə nəticəyə cəlməyə əsas verir ki, Paşinyan ona verilən zamanı düzgün dəyərləndirə bilməyib.**

Məhz bu səbəbdən onun Qarabağ məsələsi ilə bağlı sərsəmləmələri, xüsusən də Xankəndidə son çıxışı savaş ehtimalını əhəmiyyətli dərəcədə artırır.

Yaranmış durumda savaşın nəticələrinin qısa müddətdə Azərbaycanın lehinə olacağını isə indi ermənilərin bir çoxu açıq etiraf edir. Əslində, mövcud situasiya da onların haqlı olduğunu üzə çıxarırır. Əvvəla məlumdur ki, hərb müstəvisində Azərbaycan Ermənistan üzərində kifayət qədər böyük üstünlüyə malikdir. Digər tərəfdən, Ermənistanın xarici siyasətdə yol verdiyi çoxsaylı səhvlər bu gün İrəvanın hamilərindən məhrum olması ilə nəticələnib. Rusiya və ABŞ-ın Ermənistana real münasibəti bəllidir, Avropa da bu ölkəyə isti münasibət bəsləmir. Bu isə o deməkdir ki, Qarabağ savaşında Ermənistan müttəfiq sarıdan tək qalacaq. Məhz bu durumda Azərbaycan ordusu qısa zaman kəsiyində düşməni daha asanlıqla darmadağın edə biləcək. Elə Ermənistan ordusunda yaranmış real vəziyyət də düşmən tərəfin hərbi baxımdan əvvəlki qaydada zəiflədəyini, onun ordusunda hansısa nizam-intizamın, döyüş qabiliyyətinin olmadığını göstərir. Erməni ordusu əvvəlki kimi cinayətkarlıq yuvasıdır və bunu işğal altındakı Azərbaycan ərazilərində, təmas xəttinin Füzuli-Xocavənd istiqamətində dislokasiya olunmuş erməni hərbi hissəsinin 19 yaşlı əsgəri, avqustun 12-də Azərbaycan tərəfə keçən Araik Kazaryanın olayı da təsdiq edir.

Xatırladaq ki, Ermənistan rəhbərliyi əsgərin guya azaraq Azərbaycan tərəfinə keçdiyini iddia edir. Amma onun qardaşı əsgərin əslində zabitlərlə probleminin olduğunu bildirib. Əsgərin qardaşı, hazırda Ermənistan ordusunda müqavilə əsasında xidmət keçən Armen Kazaryan "Aykakan jamanak" qəzetinin əməkdaşı ilə söhbətində həmin informasiyanı ona Beynəlxalq Qırmızı Xaç təşkilatından verdiklərini bildirib. Armen Kazaryan deyib ki, qardaşının qulluq etdiyi hərbi hissəyə gedə və təfərrüatları öyrənə bilməyib: "Mənə hərbi hissəyə getməyə icazə vermədilər. Ancaq Xankəndidə hərbi polisdə oldum, oradan məni geri göndərdilər, hərbi hissəyə buraxmadılar". Armen Kazaryanın bildirdiyinə görə, ona deyiblər ki, qardaşının Azərbaycan tərəfə keçməsi ilə bağlı məsələ məxfidir: "Ailə üzvlərimizdən də gizlədirlər". Hərbi hissədə qardaşına təzyiq edildiyi, döyüldüyü haqda xəbərlər barədə isə Armen Kazaryan bunları deyib: "Mən bilirdim ki, onun problemləri var ". Kazaryan əlavə edib ki, qardaşının problemi əsgərlərlə yox, zabitlərlə olub. Və görünür, Müdafiə Nazirliyi bu səbəbdən faktları gizlədir. Xatırladaq ki, Beynəlxalq Qırmızı Xaç nümayəndələri artıq erməni əsgərlə görüşüb. Azərbaycan Müdafiə Nazirliyinin bildirdiyinə görə, Araik Kazaryan qulluq etdiyi hərbi hissədə müntəzəm döyüldüyünü, alçaldıldığını danışıb, onun başında, kürəyində və əlində xəsarət izləri olub. Amma qeyd edilənlər Ermənistan ordusunda heç də nadir hal olmayıb, kütləvi xarakter daşıyır. Hakimiyyət dəyişikliyindən sonra bu problemin daha da şiddətləndiyini ermənilər özləri də açıq etiraf edir. Məsələn, elə erməni mediasında yayılan məlumata əsasən, işğal altındakı Ağdərə rayonu ərazisində, Madagiz kəndindəki düşmənin hərbi hissəsində zabitlərin əsgərlərə qarşı zorakılıqları davam edir. Bu fonda hərbi hissənin bir neçə zabiti barəsində cinayət işi başlanıb, digərləri müxtəlif cinayətlərə görə məhkum edilib. Amma onlar xidmətdən azad olunmayıb və hələ də hərbi hissədə qulluq edirlər.

Erməni mediası yazır ki, cinayəti törədənlərdən biri olan mayor Ruben Faxradyan əsgərləri yerə yıxaraq onları tapdalayıb. O, əsgərləri "Yat" komandası verildikdən sonra kazarmanın yataqxanasında yemək yedikləri üçün cəzalandırıb. Əsgərləri yemək yeyərkən yaxalayan mayor onlardan üçünü - kiçik serjant Mxitar Sarkisyanı, Sergey Qriqoryanı və Narek Petrosyanı döyüb. Butulka ilə kiçik serjant Poqosyanın başına və sifətinə zərbələr endirən mayor digərlərinə uzanmağı əmr edib və onları tapdalayıb. Bu əməllərinə görə mayorun barəsində başqa yerə getməmək barədə intizam tədbiri hökmü çıxarılıb. Amma istintaq dövründə hərbi prokurorluq mayoru təcrid etməyib və o, xidmətini davam etdirib. Erməni mediası yazır ki, cinayətkar mayor Faxradyan prokurorluğun, hakimlərin, komandirlərinin, polkovnik Armen Gözəlyanın, müdafiə naziri Davit Tonoyanın tam himayəsi altındadır. Elə bu səbəbdən də Madagizdəki hərbi hissədə zorakılıq və cinayətlər davam edir.

Baş verənlər, eyni zamanda, Ermənistanda etirazlara da rəvac verir. Belə ki, əsgər valideynləri Müdafiə Nazirliyi qarşısında etiraz aksiyası keçiriblər. Onlar hərbi hissələrdə komandirlərin övladlarına etdikləri təzyiq və işgəncələrə son qoymalarını tələb ediblər. Etirazçılar Ermənistan ordusunda özbaşınalıq və xaosun tüğyan etdiyini bildiriblər. Son altı ayın statistikasına görə, orduda qeyri-döyüş şəraitində ölən əsgərlərin sayı 33-ə çatıb. Onlardan 14-ü hərbi hissələrdəki özbaşınalığa dözə bilməyərək intihar edib. Narazı əsgər valideynləri qeyd ediblər ki, qeyri-döyüş şəraitində itkilərin artması hərbi hissələrdəki xaosdan xəbər verir. Bunun nəticəsində əsgəri xidmətdən yayınma halları artıb. Cəmiyyətin orduya inamı yoxdur. Çünki xidmət keçənlərin əksəriyyəti evinə, ən yaxşı halda, əlil olaraq qayıdır. Hökuməti isə onların sonrakı taleyi maraqlandırmır. Etiraz edənlərdən valideyn Ağban Vardanyan bildirib ki, övladı bir il əvvəl məcburi olaraq Dağlıq Qarabağa hərbi xidmətə göndərilib. Valideynin sözlərinə görə, oğlu bu yaxınlarda hərbi hospitala yerləşdirilib. Övladının hərbi hissənin komandir müavini tərəfindən döyüldüyünü deyən narazı valideyn vurğulayıb ki, həmin şəxs oğluna işgəncə verdikdən sonra onu boğaraq öldürmək istəyib. Etirazçılar bildiriblər ki, müdafiə naziri onları qəbul etməsə aksiyanı dayandırmayacaqlar. Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisindən bildirilir ki, orduda baş verən problemlərin kökündə rüşvət və korrupsiya dayanır. Ermənistan təhlükəsizlik xidmətinin keçirdiyi istintaq nəticəsində Müdafiə Nazirliyinin ehtiyacları üçün xərclənməli olan pulların mənimsənilməsi üzə çıxıb. İstintaq məlumatına görə, Müdafiə Nazirliyinin yüksək rütbəli şəxsləri təchizatçı şirkətlə cinayət əlaqəsinə girərək dəyəri aşağı olan malları bağladıqları müqavilədə yüksək qiymətə göstəririlər. Bu və digər hallar bir daha erməni ordusunun cinayətkarlıq yuvası olduğunu aydın nümayiş etdirir. Döyüş qabiliyyəti də çox aşağı olan belə bir ordunun Azərbaycan qarşısında tab gətirməsi isə sadəcə mümkünsüzdür.

Azərbaycan ordusu təkcə Ermənistanla müqayisədə yox, digərləri ilə də qarşılaşdırıldıqda dünya miqyasında güclü ordular sırasında yer alır. Beynəlxalq ekspertlər dəfələrlə fikir bildiriblər ki, Azərbaycan ordusu bütün göstəricilərinə görə Cənubi Qafqazda ən güclü ordudur. Ayrıca, Ermənistan silahlı qüvvələrindən dəfələrlə qüdrətlidir. Məsələn, 2016-cı ilin məlum aprel döyüşlərində Azərbaycan ordusunun kiçik bir hissəsi Ermənistan ordusunu darmadağın etdi. Ermənistan ordusunu tam məğlubiyyətdən Rusiya xilas etdi. Bunu indi rəsmi səviyyədə açıq deyirlər. Məhz həmin vaxt ermənilər yalvarıblar ki, Azərbaycanı dayandırsınlar. Lakin hətta qısamüddətli döyüş belə göstərdi ki, Ermənistan ordusu Azərbaycan ordusundan dəfələrlə zəifdir. Həm təşkilati, həm silahlanma, həm də döyüş taktikası, strateji planlama kimi istiqamətlərdə erməni ordusu çox geridə qalır. İndi Ermənistan rəsmiləri ordudakı xəyanətkarları, caniləri, silah alverçilərini, bacarıqsız zabitləri axtarmaqla məşğuldursa, Azərbaycan rəhbərliyi ordunu daha da gücləndirir. Bu kimi məqamlar Azərbaycan Ordusu qarşısında Ermənistan silahlı qüvvələrinin dayana bilməyəcəyini sübut edir. Yəni Azərbaycan istənilən variantda öz torpaqlarını azad etmək hüququna və gücünə malikdir, bunu kimsə inkar edə bilməz. Ermənistan isə elə gücdə deyil ki, hamilərinin dəstəyi kəsildikdən sonra işğal etdiyi ərazilərdən silahlı qüvvələrini çəkməsin. Bütün bunlar fonunda "1-in.am" portalının yazdıqları da xüsusi diqqət cəlb edir: "Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Paşinyan çox vədlər yağdırdı və bu gün fərqli vəziyyət müşahidə olunur. Məsələn, orduda qeyri-döyüş şəraitində əsgər ölümləri azalmayıb. İqtisadi sahədə geriləmə ordunun təminatında ciddi problem yaradır. Paşinyanın ordu və digər müstəvidə vədlərinin reallıqdan uzaq olduğunu dərk etmək üçün uzun zamana ehtiyac yox idi. Bu gün hökumətin fəaliyyətini qanedici hesab etmək çətindir. Paşinyan özünün rəhbərliyi altında hökumətin parlaq şəkildə işlədiyini, iqtisadiyyatın yüksək templə artdığını, əmək haqqı və təqaüdlərin artdığını, ödənişsiz tibbi yardımın əhatəsinin genişləndirildiyini nə qədər xalq arasında nümayiş etdirməyə çalışsa da, eyni şeydir, ictimai həyatda nailiyyətlər hiss edilmir. İnsanların sürətli dəyişikliklərə ümidi vardı, hər şeyin tezliklə yaxşı olacağını gözləyirdilər. Lakin belə olmadı. Zaman keçsə də, hökumət bir o qədər də tələsmir. Siyasi hakimiyyət ləng tərpəniş yolunu seçib. Bu gedişlə insanların iqtisadi və sosial həyatda dəyişiklikləri hiss etməsi üçün nə qədər zamanın tələb olunacağı hələ sual olaraq qalır. Hakimiyyət dəyişikliyindən əvvəl Paşinyan çox şey vəd edirdi. Amma ciddi dəyişən nəsə yoxdur. Bu durumda əsgər anaların artan etirazları ordu ilə bağlı vədlərin də yarımçıq qaldığını göstərir. Yenə yüksək rütbəli zabitlər ordu hesabına böyük gəlirlər əldə edir, korrupsiya çiçəklənir, döyüş qabiliyyəti aşağı düşür. Bu isə Azərbaycana yeni savaşa başlamaq üçün əla fürsət yaradır. Amma yeni savaş erməni tərəfinə aprel döyüşləri ilə müqayisədə daha böyük məğlubiyyət gətirə bilər". Bütün bunlar bir daha təsdiq edir ki, Ermənistan indi əvvəlki ilə müqayisədə Qarabağ məsələsində daha zəif durumdadır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# 2019-2020-ci tədris ili üçün məktəblərdə 7 min vakant müəllim yeri çıxdı...

**Azərbaycanın orta ümumtəhsil məktəblərində ilbəil müəllimlər üçün vakant yerlərin sayı artırılır. Bu da onu deməyə əsas verir ki, orta ümumtəhsil məktəbləri kadr islahatlarına açıqdır və tədrisin keyfiyyətinin yüksəldilməsinə çalışır. Bu tədris ili üçün 7 mindən artıq vakant müəllim yeri var.**



***Kamran Əsədov:** "Müəllimlərin dərs saatları onların diaqnostik imtahanlarının nəticələri əsasında bölündüyü üçün, məktəblərdə əlavə dərs saatları yaranıb ki, bu da əlavə vakansiyaları zəruri edir"*

Bu barədə təhsil nazirinin müavini Məhəbbət Vəliyeva müəllimlərin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsinin nəticələrindən danışarkən bildirib.

Qeyd edilənə görə, müsahibələrdə biologiya, fransız dili, texnologiya və təsviri incəsənət müəllimi olmaq istəyən 736 namizədin iştirakı haqqında bildirilir.

M.Vəliyevanın sözlərinə görə, avqustun 19-dan etibarən keçirilən müsahibələrdə 2 632 namizəd iştirak edib. Nazir müavini 2019-2020-ci tədris ili üçün müsabiqəyə respublika üzrə, ümumilikdə, 7 mindən artıq vakant yer çıxarıldığını deyib.

Təhsil nazirinin müavini vurğulayıb ki, bu il məktəbdə psixoloq vəzifəsində işləyənlər də müsahibə komissiyasının tərkibinə üzv olaraq cəlb edilib və məqsəd hər bir namizədin ixtisas, pedaqoji, eləcə də metodiki biliklərlə yanaşı, psixoloji vəziyyətinin qiymətləndirilməsinə nail olmaqdır. Builki müsahibələrdə müəllimliyə namizədlərin yüksək nəticələr göstərdiyini qeyd edən M.Vəliyeva onların hər birinə uğurlar arzulayıb, müəllim adını qazanacaq namizədlərin təhsilin inkişafına töhfə verəcəklərinə əminliyini ifadə edib.

Qeyd edək ki, müsahibə zamanı namizədlərin ixtisası üzrə bilik və bacarıqları, psixoloji durumu və ümumi dünyagörüşü yoxlanılır. Həmçinin, namizədlər ixtisasları üzrə əvvəlcədən elan olunmuş mövzulardan birini açıq dərs formatında müsahibə komissiyası üzvlərinə təqdim etməlidirlər. Həmin mövzu proqram təminatı tərəfindən təsadüfi seçim əsasında müəyyən edilir.

Məsələyə münasibət bildirən tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, bu əhəmiyyətli rəqəmdir. "İlk növbədə qeyd etmək istəyirəm ki, artıq 10 ildir orta məktəblərdə işləmək istəyən müəllimlərin işə qəbulu 4 mərhələdən (elektron ərizədəki göstəricilərin qiymətləndirilməsi, test imtahanı, vakant yerlərin seçilməsi və müsahibə) ibarətdir. Test imtahanı mərhələsində namizədlərə 40 ixtisas, 10 kurikulum, 10 məntiq olmaqla 60 sual təqdim ediləcək. Bu mərhələdə keçid balını toplamış namizədlər 8 vakant yer seçə biləcəklər. Namizədlərin vakant yerlərə yerləşdirilməsi elektron ərizələrində qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə aparılırır. Müsahibə mərhələsində test imtahanlarının nəticələrinə əsasən, vakant yer tutmaq hüququ qazanmış namizədlərin peşəkar kompetensiyaları, psixoloji hazırlığı və ümumi dünyagörüşü yoxlanılır.

*"Hər il 7 mindən çox müəllimin təhsil sisteminə daxil olması təhsilin inkişafına, dinamikliyinə müsbət təsir göstərir"*

Qeyd edim ki, hazırda 4472 orta məktəbdə 151 min müəllim çalışır.

Amma hər il 65 yaşı tamam olduğuna görə, iş yerini dəyişdiyinə görə və digər səbəblərdən müəyyən qədər vakant yer yaranır.

Eyni zamanda, müəllimlərin dərs saatları onların diaqnostik imtahanlarının nəticələri əsasında bölündüyü üçün, məktəblərdə əlavə dərs saatları yaranıb ki, bu da əlavə vakansiyaları zəruri edir. Təhsil Nazirliyinin həyata keçirdiyi siyasətin sosialyönümlü olduğunu nəzərə alsaq, onlar ölkədə daha çox insanın işlə təmin olunması üçün ciddi səy göstərirlər. Hər il 7 mindən çox müəllimin təhsil sisteminə daxil olması təhsilin inkişafına, dinamikliyinə müsbət təsir göstərir. Son 5 il ərzində Təhsil Nazirliyi tərəfindən 25 minə yaxın yeni şəxs təhsil sisteminə daxil olub. Bu olduqca müsbət bir addımdır" - deyə K.Əsədov vurğuladı.

***İradə SARIYEVA***

# Azərbaycanda bağça işinə dair kədərli rəqəmlər - 500-dən çox ali təhsilsiz direktor, cəmi 31 faiz ali təhsilli müəllimə...

**Dövlət Statistika Komitəsi məktəbəqədər təhsil müəssisələri ilə bağlı rəqəmlər açıqlayıb. Sözügedən rəqəmlərdən məlum olub ki, dövlət bağçalarında işləyən 16099 pedaqoji işçinin 31,8 faizi ali, 61,7 faizi orta ixtisas, 6,3 faizi isə tam orta təhsillidir. 1679 dövlət bağçasının müdirlərindən 69,9 faizi ali, 28,6 faizi orta ixtisas, 1 faizi isə tam orta təhsillidir. Ümumilikdə isə rəsmi statistikaya əsasən, 505 bağça müdirinin ali təhsili yoxdur.**



***Məhərrəm Zülfüqarlı:** "Hesab edirəm ki, bağça müdirləri arasında bu qədər ali təhsili olmayan şəxsin olması düzgün deyil"*

Görünən odur ki, məktəbəqədər təhsil müəssisələrinin kadrlarla təminatında problemlər mövcuddur. Bağça müdirlərinin, tərbiyəçi müəllimlərin böyük hissəsi kollec məzunlarıdır. Belə məlumatlar var ki, onların böyük əksəriyyəti qiyabi təhsil alıb. Bu səbəbdən bağçaların səviyyəsi çox aşağıdır. Məktəbəqədər təhsilin nəinki kadr təminatı, eyni zamanda, tədrisi də yaxşı deyil. Ona görə də məktəbəqədər təhsil müəssisələrinin səviyyəsi artırılmalıdır. Digər tərəfdən, ölkədə məktəbəqədər təhsil müəssisələrinin sayı da azdır. Bu cür müəssisələrin sayı artırılmalıdır.

Bütün bunların fonunda, maraqlıdır, 505 bağça müdirinin ali təhsilinin olmamasına təhsil ekspertləri necə yanaşırlar? Ümumən ali təhsili olmayan şəxslərin bağça müdiri kimi çalışmasına münasibət necədir?

Məsələyə münasibət bildirən təhsil sahəsi üzrə ekspert Məhərrəm Zülfüqarlı buna mənfi prizmadan yanaşdı: "Hesab edirəm ki, bağça müdirləri arasında bu qədər ali təhsili olmayan şəxsin olması düzgün deyil. Məktəbəqədər təhsil müəssisələrinə barmaqarası baxmaq olmaz. Bu cür müəssisələrə ali pedaqoji təhsili, iş təcrübəsi olan şəxslər rəhbər təyin edilməlidirlər. Ali təhsili olan şəxslər orada tərbiyəçi işləsə, daha məqbul olar. Kimi gəldi bağçaya müdir təyin etmək olmaz. Hesab edirəm ki, bu sahəyə nəzarət artırılmalıdır.

*"Ali təhsili olan şəxslər orada tərbiyəçi işləsə, daha məqbul olar"*

Çünki elə məktəbəqədər təhsil müəssisələri var ki, orada yaşı keçmiş tərbiyəçilər çalışırlar.

Kurrikulumlar, tədris metodiki vəsaitlər çox ciddi ekspertiza olunmalıdır. Bu qurumlar Təhsil Nazirliyinin tabeliyində olsa, daha yaxşı olar. Çünki bütün kurrikulum, tədris metodiki vəsaitlər Təhsil Nazirliyinin tərkibindədir. İcra hakimiyyətləri mütəxəssis baxımından yetərli deyillər. Ona görə də bütün bunlar nəzərə alınmalıdır".

***Vidadi ORDAHALLI***

# Gəncədə arxeologiya parkı...

**Bu gün dünya turistlərinin diqqətini çəkən əsas obyektlərdən biri arxeoloji parklardır. Turistlər müxtəlif ölkələrə gedərkən arxeoloji parklarla da ciddi maraqlanırlar. Azərbaycanda hələ arxeoloji park mövcud olmasa da, belə parkların yaradılmasına maraq göstərilir. 2012-ci ildə Prezident İlham Əliyev Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı Sərəncam imzalamışdı.**

Sözügedən arxeoloji parkın yaradılması Gəncə-Qazax bölgəsinə turizm cəlbi üçün əhəmiyyətli rol oynayacaq.

Məlumatlara görə, Gəncədə də kurqanlardan ibarət arxeoloji park yaradılacaq. Bu barədə Gəncə Şəhər İcra Hakimiyyətində CAMNES elmi-tədqiqat mərkəzi və İtaliyanın Kataniya Universitetinin professoru Nikola Lanerlə görüş zamanı bildirilib.

N.Laner Gəncə şəhəri ətrafında aparılan tədqiqatlar zamanı burada açıq havada kurqanlardan ibarət arxeoloji parkın yaradılması üçün əlverişli şərait olduğunu bildirib. O, unikal arxeoparkın yaradılmasının yerli əhali ilə bərabər turistlərin də diqqətini çəkə biləcəyini deyib. Gəncədə bu cür arxeoparkın yaradılması Azərbaycanın keçmişi barədə daha dolğun məlumat verməyə imkan yaradacaq, həmçinin, Gəncə və ətraf bölgələrə turizm axınına da təkan verəcək. Görüşdə

açıq səma altında arxeoloji muzeyin şüşə örtüklə sərgisinin yaradılması barədə razılıq əldə olunub.

Gəncədə yaradılması nəzərdə tutulan arxeoloji park bölgəyə turistlərin kütləvi cəlb edilməsinə, tarixi mədəniyyətimizin təbliğ edilməsinə necə təkan verəcək?

Tarix elmləri doktoru, əməkdar jurnalist Qafar Cəbiyev "Bakı-Xəbər"ə bildirdi ki, ölkədə arxeoloji parkların yaradılması həm tariximizin, həm mədəniyyətimizin, həm arxeoloji irsimizin təbliğinə, həm də bölgəyə turistlərin ciddi şəkildə axın etməsinə səbəb ola bilər: "İstər kurqanlarla, istərsə də digər tarixi abidələrlə bağlı arxeoloji parkların yaradılması praktikası dünyanın bir çox ölkəsində çox uğurla tətbiq və inkişaf etdirilib. Azərbaycanda həm kurqanlardan, həm də tarixi abidələrdən ibarət arxeoloji parkın yaradılmasına ciddi ehtiyac var. Bu arxeoloji parkın hansı şəhərdə, rayonda yaradılmasından asılı olmayaraq, onun yaradılması tarixi-mədəni irsimizin təbliği baxımından çox aktual və vacib bir iş olar. Azərbaycanda ayrı-ayrı arxeoloji obyektlər var, amma onların heç biri hələ ki, arxeoloji park statusu daşımır. Arxeoloji parkın yaradılması müsbət bir haldır və bu həmin bölgənin turizm potensialının da artmasına səbəb olacaq".

Azərbaycan Turizm və Menicment Universitetinin kafedra müdiri, turizm üzrə tanınmış mütəxəssis Bahadur Bilalov da bizimlə söhbətində arxeoloji parkın yaradılmasının arxeoturizmin inkişafına mühüm töhfə verəcəyini qeyd etdi: "Prinsip etibarilə bu tip parkların yaradılması tarixi abidələrlə maraqlanan turistləri cəlb etməsi, onları motivasiya etməsi baxımından mühüm rola malikdir. Düşünürəm ki, Gəncədə kurqanlardan ibarət arxeoloji park yaradılacaqsa, dünyanın aparıcı arxeoloqları gəlib orada mühüm elmi tədqiqatlar aparacaqlar. Digər tərəfdən, arxeologiya, tarixlə, maddi-mədəni irslə maraqlanan turistlər dünya turistlərinin müəyyən bir hissəsini təşkil edirlər, onlar da bu parka böyük maraq göstərəcəklər. Ağsu şəhərində arxeoloji obyekt yaradılanda çoxu ona dodaq büzsə də, nəticə göstərdi ki, bura nə qədər xarici turist gəlir. Bu məkan artıq ekskursiya obyektinə çevrilib. Bu baxımdan, hesab edirəm ki, bölgəyə turist cəlb edilməsi nöqteyi-nəzərindən yaradılması nəzərdə tutulan kurqanlardan ibarət arxeoloji park bu məsələdə mühüm rol oynaya bilər".



***Qafar Cəbiyev:*** *"Arxeoloji parkın yaradılması müsbət bir haldır və bu həmin bölgənin turizm potensialının da artmasına səbəb olacaq"*

***Bahadur Bilalov:*** *"...dünyanın aparıcı arxeoloqları gəlib orada mühüm elmi tədqiqatlar aparacaqlar"*

***İradə SARIYEVA***



# Din xadimlərimizin sosial şəbəkələrdən istifadəsinin yetərli səviyyədə olmadığı üzə çıxır

**Din pərdəsi altında gizlənmiş, İslamı təhrif edən, xurafatı, cəhaləti yayan, insanlar arasında ixtilafa səbəb olacaq çağırışlar edən, məzhəb ayrı seçkiliyi salan, digər dinlərə münasibətlərə ciddi zərbə vuracaq materialları yayan qüvvələrə qarşı din xadimlərimizin, ilahiyyatçılarımızın, dini icmalarımızın üzərinə də böyük məsuliyyət düşür.**

Onlar İslamın, dinimizin gözəlliklərini, insanpərvər dəyərlərini, həmrəyliyə və birliyə çağıran xüsusiyyətlərini insanlarımıza sadəcə məsciddən yox, həm də məhz sosial media vasitəsilə çatdırmaqda aktivlik nümayiş etdirməlidirlər.

Trend-in məlumatına görə, bu fikirləri Qəbələdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qəbələ Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı deyib.

Sədr müavini nümunəvi dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərimizin qorunması, tolerant və multikultural ənənələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən, o cümlədən din xadimlərinin sosial şəbəkələrdən aktiv istifadə etməsinin vacibliyindən danışıb.

Bildirib ki, günümüzdə dövlətimizin din siyasəti ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi demokratik dövlət quruculuğu siyasətinə əsaslanır. Ulu öndərin siyasi varisi, layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə insan hüquq və azadlıqlarına, xüsusilə vicdan və dini etiqad azadlığının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına, insanların, xüsusən də gənclərimizin dəyərlərimizə sadiq yetişməsinə böyük önəm verilir: "Ölkəmizdə hökm sürən multikulturalizm və dinlərarası tolerantlıq mühitinə qarşı əsas təhdidlərdən biri dini radikalizmdir. Bunun yaranma səbəblərindən biri kimi İslam dini haqqında məlumatsızlıq, yad dini ideologiyaların yayılması cəhdləridir. Dini ekstremizm və dini radikalizmlə mübarizədə və bu kimi mənfi halların yayılmasında sosial şəbəkələrin rolu danılmazdır".

Qurum rəsmisi sosial medianın vətəndaş cəmiyyətinin formalaşması üçün başlıca faktorlardan biri olduğunu deyib. Diqqətə çatdırıb ki, din pərdəsi altında gizlənmiş, İslamı gözdən salan qüvvələrin çirkin əməlləri üçün sosial media imkanlarından çox effektli şəkildə istifadə edirlər.

Sədrin birinci müavini din xadimlərini sosial medianın gücündən və imkanlarından istifadə edərək respublikamızda sabitliyi pozmaq istəyən, yüksək dini ideyalar uğrunda mübarizə pərdəsi altında fəaliyyət göstərən qrupların əsl simasının ifşa edilməsində prinsipiallıq və aktivlik nümayiş etdirməyə çağırıb.

# "Qadın Konsensus Mərkəzi" şəhid ailələrinin sosial problemlərinin həllinə dair ictimai müzakirə keçirdi...

**"Qadın Konsensus Mərkəzi" İctimai Birliyi Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Şəhid ailələrinin sosial problemlərinin həllinə dair təşəbbüslər" mövzusunda ictimai müzakirə təşkil edib.**

Teleqraf.com-un məlumatına görə, tədbiri giriş sözü ilə açan "Qadın Konsensus Mərkəzi" İctimai Birliyinin sədri, Teleqraf Media Qrupunun rəhbəri Aynur Camalqızı Füzuli və Cəbrayıl rayonlarının işğalının ildönümü xatırladaraq tədbir iştirakçılarından Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanların xatirəsini bir dəqiqə sükutla yad olunmasını xahiş edib.

Daha sonra Aynur Camalqızı bildirib ki, Azərbaycan dövlətinin şəhid ailələri, müharibə veteranlarının problemlərinin həllinə yönəlik fəaliyyəti mövcuddur.

Onun sözlərinə görə, bu fəaliyyət nəticəsində şəhid ailələrinə və onların varislərinə birdəfəlik ödəmələrin verilməsi ilə bağlı Azərbaycan Prezidenti cənab İlham Əliyevin məlum sərəncamı oldu: "Düşündük ki, bu yöndə dövlətimizin atdığı addımları, birdəfəlik ödəmələri almalı olan ailələrin problemləri ilə bağlı məsələləri həm mediada işıqlandırmaq, həm də onlara hüquqi yardımlar göstərmək üçün belə layihənin həyata keçirilməsi çox yaxşı olardı: "Bildiyimiz kimi, Azərbaycan dövləti Silahlı Qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsi, mənzil-məişət problemlərinin həll olunması, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirib.

Bu sahədə dövlət siyasətinin mühüm istiqamətlərindən biri də hərbi qulluqçulara dövlət icbari sığortasının tətbiqidir. 1997-ci il avqustun 2-də "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra hərbi qulluqçuların həlak olması, itkin düşməsi və ya xəsarət alması zamanı sığorta ödənişlərinin verilməsinə dair normativ hüquqi baza formalaşdırılıb, belə ödənişlərlə bağlı maliyyə təminatı məsələsi həll edilib və Qanuna uyğun olaraq sığorta ödənişlərinin verilməsinə başlanılıb.

Azərbaycan Prezidenti İlham Əliyev həmin Qanunun tətbiqindən əvvəl Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq 19 aprel 2018-ci ildə fərman verib. Fərmanda 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmənin verilməsi nəzərdə tutulub. Layihə çərçivəsində birdəfəlik ödəmə almaq hüququ olan ailələrə hüquqi yardımlar göstərilib, onların problemləri internet informasiya resurslarında işıqlandırılıb. Həmçinin layihə çərçivəsində bukletlər çap olunub, şəhid ailələri üçün Xocali.ws saytında xüsusi bölmə yaradılıb, şəhid ailələrindən reportajlar hazırlanıb, müsahibələr hazırlanıb. Reportaj və müsahibələr Xocali.ws saytı ilə yanaşı, Teleqraf.com, Publika.az və Axar.az saytlarında işıqlandırılıb".



Aynur Camalqızı bu günlərdə şəhid olmuş Rəşad Atakişiyev barədə sosial şəbəkələrdə aktiv müzakirələr getdiyini xatırladıb: "İnsanlar bu məsələyə həssaslıq göstərir. Bu, başadüşüləndir. Azərbaycanda dövlətə və dövlətçiliyə münasibət əsgərə olan münasibətdən qaynaqlanır. Xalqın Qarabağa, öz n ordusuna münasibəti birmənalı, dəyişməz və həssasdır. Məmurlara və digər məsələlərdə münasibətdə insanların bu cür münasibətini görmək mümkün deyil.

Əsgərə, şəhidə münasibətin sosial şəbəkələrdəki müzakirələrdə bariz nümunəsini görürük. Bu, da sözün açığı, məni çox qürurlandırır. İstər media, istərsə də sosial şəbəkələrdə Qarabağla bağlı vəziyyətlə barışması, Qarabağ probleminin həllindən uzaqlaşması kimi bəzən fikirlər ortaya atılır və bu günlərdə gedən müzakirələr, ordumuza, şəhidimizə olan münasibət göstərir ki, bu, belə deyil.

İnsanlar üçün Qarabağ məsələsi, onun həlli birinci yerdədir, bizim həyat tərzimizə, taleyimizə çevrilib. Azərbaycanda elə bir insan tapmaq mümkün deyil ki, dövlətimzi Qarabağsız təsəvvür edə bilsin və Qarabağ problemi ola-ola özünü xoşbəxt hiss edə bilsin".

Aprel müharibəsində şəhid olan Fəxrəddin Qurbanlının atası Seyfəddin Qurbanlı oğlunun adının əbədiləşməsi üçün medianın və QHT sektorunun dəstəyinə ehtiyac olduğunu vurğulayıb: "Yaşadığım küçə Mədən küçəsidir, oğlumun adı verilsə, bizim üçün də bir təskinlik olar. Oğlum universitet tarixində ən yüksək təqaüd alıb. Həmişə deyirdi ki, Qarabağ Zəngəzurdur. Sosial şəbəkədə sonuncu statusunda da yazmışdı ki, getdiyim istiqamət doğma Qarabağdır, biz geri qaytarmalıyıq ki, gələcək nəsil bizi ittiham eləməsin.

Şəhid ailələrinin mənəvi diqqətə ehtiyacı var. Kimsə qapını açıb girirsə, elə bilirəm, Fəxrəddin yaşayır, kimsə onu anıb gəlir".

Publisist Qurban Yaquboğlu qeyd edib ki, medianın toplumla əlaqəsi həm də bu cür müzakirələrdə gedir: "Ən inkişaf etmiş ölkələrdə də hüquqi yardıma ehtiyac olur, problemlər araşdırılır, yardım göstərilir. Şəhidlik statusunun mənəvi tərəfi medianın üzərinə yeni vəzifələr qoyur".

Qurban Yaquboğlu hesab edir ki, Azərbaycanda şəhidlik statusu öz həqiqi yerinə qoyulmalı, dəyər həddinə çatdırılmalıdır: "Şəhidlik mənəvi status olaraq yüksəlməli, insanlar başa düşməlidir ki, Vətən uğrunda həlak olursa, balalarını yetim qoyursa, ayrıca status var, sonrakı insanlar da bu yoldan çəkinməməlidir. Şəhidlərin ailə üzvlərinin problemlərini qabartmalı, həllinə çalışmalıyıq. "Qadın Konsensus Mərkəzi" İctimai Birliyi silsilə olaraq bu prosesi davam etdirsə, çox yaxşı olar".

**Azərbaycan Yazıçılar Birliyi (AYB) yaradıcı qurumlar arasında ən çox diqqətdə saxlanılan qurumdur. Burada baş verən istənilən hadisə dərhal gündəmə çevrilir. Onu da qeyd edək ki, AYB ətrafında baş verən ayrı-ayrı qalmaqallı məsələlər daha çox diqqət çəkir. AYB bu dəfə növbəti qurultayının keçirilməsi ilə gündəmə gəlib. Birliyin katibi, xalq yazıçısı Çingiz Abdullayev bildirib ki, qurumun XIII qurultayı 2020-ci ilin mart ayında keçiriləcək.**

# Yazıçılar Birliyinin qurultayı gəlir - sədr məsələsi gündəmdə...

Birliyin qurultayının keçirilməsi tarixi açıqlandıqdan sonra bu məsələ yazıçı və şairlər tərəfindən ciddi şəkildə müzakirə edilir. Bir sıra şair və yazıçılar hesab edirlər ki, Anar 30 ildir quruma rəhbərlik edir və onun artıq bu postu tərk etməsi zamanın tələbidir. Bu məsələyə xüsusən də gənc yazarlar daha həssas yanaşırlar. Onlar hesab edir ki, növbəti qurultayda alternativ namizədlər olacaq. Ümumiyyətlə, AYB sədrliyi uğrunda mübarizə aparacaq yazarlar arasında gənclərin də olacağı şübhə doğurmur.

Bildiyimiz kimi Birliyin XI qurultayı 2004-cü, XII qurultayı isə bundan 10 il sonra 2014-cü ildə keçirilib. Ümumiyyətlə, bir-iki istisnanı nəzərə almasaq deməliyik ki, Anar bu seçkilərdə alternativ namizəd olub. Qeyd edək ki, XI qurultayda AYB sədrliyinə alternativ namizəd kimi mərhum şairimiz Akif Səməd öz namizədliyini versə də, bu alınmamışdı. XII Qurultayda isə şair Elxan Zal Qaraxanlının alternativ namizəd olacağı elan edilsə də, seçkinin gedişi zamanı Elxan Zal namizədliyini geri götürdü və nəticədə birlik sədri postuna yenidən xalq yazıçısı Anar seçildi. Yazıçılar Birliyinə sədr seçkiləri nədənsə həmişə alternativ namizədsiz keçirilir. Deyilənə görə, 2020-ci ildə keçiriləcək seçkilər ötən seçkilərə bənzəməyəcək. Yəni yazarlar qurultaydan yenilik, sədr dəyişikliyi gözləyirlər.

Onu da bildirək ki, 2020-ci ildə AYB sədrliyinə alternativ namizədlərdən biri kimi xalq yazıçısı, birliyin katibi Çingiz Abdullayevin adı daha çox hallandırılır. Yazarlar arasında gəzən söz-söhbətə görə, Ç.Abdullayev birlik sədrliyinə iddialıdır.

Ç.Abdullayev isə bu barədə mətbuata bildirib ki, qurultayda sədrliyə namizədliyini irəli sürməyi düşünmür, lakin bununla bağlı qabaqcadan proqnoz verməyin düzgün olmadığını deyib: "Ümumiyyətlə, yazıçılar öncədən proqnoz verə bilməz. Kim seçiləcəksə, o, sədr təyin olunacaq. Mən 4 dəfə qurultayda katib vəzifəsinə seçilmişəm. Hesab edirəm ki, sədr vəzifəsini Anardan başqa heç kim yaxşı icra edə bilməz. Bunu Anarla 30 il birlikdə çalışan bir şəxs kimi deyirəm. Əgər Anar namizədliyini irəli sürərsə, mən yenə də ona səs verəcəm".

Ç.Abdullayev AYB-yə sədrlik iddiasında olan gənc yazıçıların istedadlarını sübut etmək üçün yaradıcılıq nümunələrini, kitablarını ortaya qoymalarının zəruri olduğunu vurğulayıb: "Azərbaycanda AYB-yə sədrlik edən şəxslər nüfuzlu olublar. Hər yoldan ötən sədr vəzifəsinə seçilə bilməz. Əgər bir gənc, həqiqətən də, nüfuzlu və istedadlıdırsa, kitablarını ortaya qoysun. AYB-yə həmişə əfsanəvi şəxslər sədrlik edib. Səməd Vurğun, Mirzə İbrahimov, Rəsul Rza, İmran Qasımov, İsmayıl Şıxlı kimi istedadlı yazıçılar sədr seçiliblər".

Yeri gəlmişkən, gənclər arasında namizəd kimi Prezident mükafatçısı, AYB üzvü Emil Rasimoğlunun da adı hallandırılır. Gənc yazar özü də "namizədliyə də, sədrliyə də israrlıyam" bəyanatı verməkdən çəkinməyib: "Bilirsiniz, çox qəribədir. AYB-nin XIII qurultayı ilə bağlı kim fikir söyləyirsə ilk öncə diqqət Anar müəllimə və onun namizəd olub-olmamasına yönəlir. Axı mən, eləcə də digər şəxslər (qələm adamları) məlum məsələ ilə bağlı münasibət bildirəndə niyə Anar müəllimin namizəd olub-olmayacağını nəzərə almalıyam və ya nəzərə almalıdırlar? Bu nə düşüncədir? Qurultay zamanı namizədliyini verər də özü bilər, verməz də... Verəcəksə o, da olacaq namizədlərdən biri. Hazırki vəziyyətə görə indi belə çıxır ki, Anar Rzayev namizədliyini verdiyi halda bütün proseslər bir başqa cür cərəyan etməlidir, verədiyi halda isə tamam bir başqa cür? Sizi inandırıram görün hansı durumdur ki, Anar müəllim namizədlik addımı ilə belə düşüncələrə, münasibətlərə ümumilikdə mühitə təsir göstərməyi bacarır. Ona görə, bir çoxları öz mövqeyini onu nəzərə alaraq bəlli edir".

Şairin sözlərinə görə, bu ədəbi mühitdə elə bir aura yaranıb ki, nə qədər ki, Anar müəllim var o qədər də alternativsizlik anlayışı hökm sürməlidir. Bu auranı da yaradan gənc yazarlardan tutmuş AYB-də çalışan məsul şəxslərə qədər olan əksəriyyətdir: "Məhz bu baxımdan bu mənzərəni görüb hətta gəldiyim qənaətə görə, bu gün Anar müəllim artıq namizədsizlikdən, sağlam mübarizəsizlikdən, süni yaradılmış alternativsizlikdən Azərbaycan Yazıçılar Birliyinə sədr vəzifəsindədir. Bu qədər mütilik olmaz. Ədəbi camiədəki bu adamlar hələ sədrlik bir yana, namizədliyə belə özlərini inandırıb rəva görmürlər. Mən bundan öncəki açıqlamalarımda da AYB-nin XIII qurultayında namizəd olacağımı vurğulamışam, yeri gəlmişkən indi də vurğulayıram. Mən namizədliyə də, sədrliyə də iddialıyam. Bu öz yerində. Yaxşı, indi mən namizəd olduğum halda məni güllələyəcəklərmi, ya ümumən belə bir hüququm yoxdurmu? Yoxsa, namizəd olmaq Anar müəllimə düşmən olmaqdır? Mən fikirlərimin sonunda yenə xüsusən ədəbi gəncliyin növbəti qurultayda namizəd kimi çoxluq təşkil etməsinin tərəfdarıyam. Bu baxımdan da həmkarlarımı sağlam mübarizəyə və özünə inama çağırıram. Buna isə ümid edirəm".

Qeyd edək ki, AYB sədri, xalq yazıçısı Anar növbəti sədr seçkisinə hazırlaşmadığını bildirib. "Mən hazırlaşmıram. Əgər yazıçılar istəyərlərsə, son dəfə də sədr olmağa razılaşaram, ömür vəfa eləsə... Son dəfə! Çünki daha yaşım da ötür. Yox, istəməzlər, adlarını çəkdiyiniz var e, onların nüfuzları daha çoxdursa, onları daha çox tanıyırlarsa, daha çox sevirlərsə, ədəbiyyata daha böyük xidmətlər göstərmişlərsə, onların ya birini, ya da üçünü bir yerdə seçsinlər. Çünki kimi seçsələr qalanları hamısı narazı olacaq" - deyə bildirib.

XIII qurultayda AYB-də sədr dəyişikliyi gözlənirmi?

AYB üzvü tanınmış şair, professor Rafiq Yusif Oğlu baki-xeber.com-un sorğusuna "Xeyr, məncə sədr dəyişikliyi gözlənilmir" cavabını verdi.

Əli Kərim adına Poeziya Evinin rəhbəri, AYB üzvü, tanınmış şair İbrahim İlyaslının fikrincə, Birlik sədrinin dəyişməsi məsələsi gələn il keçiriləcək qurultayda məlum olacaq. Əvvəlcədən proqnoz verməyin tərəfdarı olmadığını deyən İ.İlyaslı ümumiyyətlə, özünün sədrliyə namizədliyini verməyəcəyini də bildirdi. "Anar müəllim artıq ?lan edib ki, qurultay gələn il keçiriləcək. Hesab edirəm ki, bütün zamanlarda olduğu kimi bu dəfə də qurultayqabağı söhbətlər, müzakirələr təbiidir. Kimin sədr olacağı məsələsini qurultayda yazıçı və şairlərin özləri həll edəcək. AYB sədri vəzifəsinə yeni adamın seçilməsi səsvermənin nəticələrindən asılı bir məsələdir. Konkret olaraq mənim namizədim də yoxdur. Anar müəllim yenidən AYB sədri vəzifəsinə namizədliyini verərsə mən ona səs verəcəyəm" - deyə İ.İlyaslı bildirdi.

AYB üzvü, şair-tərcüməçi Giya Paçxataşvili isə hesab edir ki, bu gedişlə Birlik sədri vəzifəsində yeni simanın görünməsi çətin məsələdir. "Düşünürəm ki, dəyişikliyə meyl yoxdur. İndiki halda yeni sədrin seçilməsi ağılabatan iş deyil. Anar artıq oturuşmuş sədrdir və o özü sədrlikdən imtina etməsə, inanmıram ki, alternativ namizəd olsun. Birlikdə ən böyük dəyişiklik və qurultayda ən böyük hadisə Anarın öz namizədliyini verməməsi ola bilər. Bu halda AYB sədri vəzifəsində dəyişiklik ola bilər, əks təqdirdə yox" - deyə G.Paçxataşvili qeyd etdi.

AYB üzvü, tanınmış ədəbiyyat tənqidçisi Əsəd Cahangir isə hesab edir ki, bu gün Yazıçılar Birliyində daha çox islahatlara ehtiyac var. "Mənə elə gəlir ki, AYB qurultayında sədr vəzifəsinə alternativ namizəd olsa və onun namizədliyi irəli sürülərsə və o səsvermədə qalib gələrsə dəyişiklik ola bilər. Hər şey seçki yolu ilədir. AYB sədrliyi vəzifəsi seçki yolu ilə baş tutur, təyinat yolu ilə deyil. Birlik sədrini qurultay iştirakçıları seçir. Anar müəllimin Birlik sədrliyinə yenidən namizədliyini verib-verməyəcəyini bilmirəm, qərar Anar müəllimindir. O, bu barədə verdiyi müsahibədə konkret mövqe bildirməyib. Həm deyir getmək istəyirəm, həm də deyir ki, ola bilsin qaldım. Yəni o ortaya qeyri-müəyyən bir mövqe qoyub. Ancaq Anar müəllimin son müsahibəsinə əsaslanıb bildirirəm ki, məncə, Anar müəllim növbəti seçkilərdə iştirak etmək istəmir. Əlbəttə, bu o demək deyil ki, Anar müəllim getsin filankəs gəlsin. Mən Anar müəllimin fikrinə istinadən deyirəm. Məsələ ilə bağlı mənim ümumi mövqeyim belədir ki, ədəbiyyat, həyat daimi yeniləşmə deməkdir. Su bir yerdə çox qalanda artıq o çirklənir. Ona görə də mənə elə gəlir ki, Azərbaycan Yazıçılar Birliyinin strukturunda ciddi islahatlara, dəyişikliklərə ehtiyac var. Bu o deməkdir ki, bu sədr gedib başqası gəlməlidir. Amma kimin sədr olmasından asılı olmayaraq, bu islahatlar həyata keçirilməlidir. Kim zamanın nəbzini tuta bilərsə, bu islahatları həyata keçirməyi bacararsa, AYB-nin strukturunda dəyişikliklər edib ədəbiyyatın inkişafına təkan verə bilərsə, mənə elə gəlir ki, ən çox o insanın sədr olmağa mənəvi haqqı var, qurultay iştirakçıları ona səs verməlidir" - deyə Ə.Cahangir bildirdi.




***Rafiq Yusifoğlu:** "Məncə sədr dəyişikliyi gözlənmir"*

***İbrahim İlyaslı:** "AYB sədri vəzifəsinə yeni adamın seçilməsi səsvermənin nəticələrindən asılı bir məsələdir"*

***Giya Paçxataşvili:** "Birlikdə ən böyük dəyişiklik və qurultayda ən böyük hadisə Anarın öz namizədliyini verməməsi ola bilər"*

***Əsəd Cahangir:** "Mənə elə gəlir ki, AYB qurultayında sədr vəzifəsinə alternativ namizəd olsa və onun namizədliyi irəli sürülərsə və o, səsvermədə qalib gələrsə, dəyişiklik ola bilər"*

***İradə SARIYEVA***

**2019-cu ilin 6 ayında ölkədən gedən turistlərin sayı ölkəyə gələnlərin sayından təxminən 1 milyon nəfər çox olub. Bu barədə Dövlət Statistika Komitəsinin məlumatında bildirilir. Belə ki, statistikaya görə, 2019-cu ilin yanvar-iyun aylarında Azərbaycana dünyanın 185 ölkəsindən 1410,7 min əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.**

*"Gedənlərin böyük əksəriyyəti heç də turizm məqsədilə xarici ölkələrə getmir"*

# Azərbaycandan gedən turistlər gələn turistlərin sayını 1 milyon üstələdi...

Bu, 2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 6,5 faiz çoxdur.

2019-cu ilin yanvar-iyun aylarında xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 25,8 faiz artaraq 2540,9 min nəfər olub. Ölkə vətəndaşlarının 39,1 faizi İrana, 27,1 faizi Gürcüstana, 18,1 faizi Rusiyaya, 10,2 faizi Türkiyəyə, 5,5 faizi isə digər ölkələrə gedib. Gedənlərin 65,7 faizini kişilər, 34,3 faizini qadınlar təşkil edib.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 71,4 faiz, Gürcüstana gedənlərin sayı 11,3 faiz, Rusiya Federasiyasına gedənlərin sayı 7,3 faiz, Türkiyəyə gedənlərin sayı isə 1,4 faiz artıb.

Belə görünür ki, ölkəmizə gələn turistlərin sayındakı cüzi artım burada keçirilən beynəlxalq yarışların hesabınadır. Məsələ ondadır ki, ard-arda keçirilən idman yarışları bu sahədə artıma səbəb olub. Bu istiqamətdə işlər arzuolunan səviyyədə qurulsa, o zaman bu, gələcəkdə bir tramplin rolunu oynaya bilər. Ancaq məlum olanda ki, təkcə bu ilin 6 ayında ölkədən gedən turistlərin sayı ölkəyə gələnlərin sayından 1 milyon nəfər çox olub, o zaman bu istiqamətdə işlərin arzuolunan səviyyədə getməməsi reallığı ortaya çıxır. Hansı ki, ölkəyə xarici turistlərin cəlb edilməsi və bu sahənin inkişaf etdirilməsi neçə vaxtdır gündəmdə duran məsələlərdən biridir. O cümlədən, bu sahədə olan çatışmazlıqlar, xüsusən də qiymətlərin yüksək olması və xidmət səviyyəsinin aşağı olması əsas problemlərdən biridir. Belə görünür ki, sözügedən sahələrdə nəzərəçarpan irəliləyiş olmadığına görə ölkədən gedən turistlərin sayı gələnlərdən xeyli çoxdur. İşlər belə gedərsə, ölkədən xaricə üz tutan turistlərin sayı daha böyük rərəmlərlə ölçüləcək.

Maraqlıdır, bəs ekspertlər yaranan bu problemin köklü səbəblərini nə ilə izah edirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Rəşad Həsənovun sözlərinə görə, Azərbaycanın turizm sektorunda mövcud olan problemlərin qısa müddətdə həlli real görünmür: "Çünki burada əsas hədəflər rəqabət mühitinin dərinləşdirilməsi və bu fonda qiymətlərin optimallaşdırılması olmalıdır. Bununla yanaşı, Azərbaycandan gedənlərin sayının çox olması təkcə turizmlə bağlı deyil. Gedənlərin böyük əksəriyyəti heç də turizm məqsədilə xarici ölkələrə getmir. Gedənlər daha çox müəyyən xidmətlər üçün - istehlak və ticarət məqsədilə gedir. Azərbaycandan xaricə səfər edənlərin 90,5 faizi 4 ölkəyə gedir. Bunlar Rusiya, Türkiyə, İran və Gürcüstandır. Xüsusən də İran, Türkiyə və Gürcüstana gedənlərin böyük əksəriyyəti ticarət məqsədilə səfər edir. İrana gedənlərin bir çoxu səhiyyə xidmətlərindən istifadə məqsədilə gedir. Deməyim odur ki, turizm və əyləncə məqsədilə üz tutanların sayı elə də çox deyil. Ancaq bütün bunlara baxmayaraq, turizm, ümumiyyətlə, özünəməxsus sahələrdən biridir. Burada müxtəlif faktorlar rol oynayır. Reallıq ondan ibarətdir ki, Azərbaycanda xidmətlərlə bağlı qiymətlərin baha olması ölkə vətəndaşlarını digər alternativ vasitələr seçməyə sövq edir. Görürlər nisbətən hara ucuzdur, ora üz tuturlar. Qiymətlərdən başqa, zövq amili də müəyyən rol oynayır. Elə insanlar var ki, daha çox xarici ölkələri gəzmək istəyir.

***Rəşad Həsənov:** "Azərbaycanda xidmətlərlə bağlı qiymətlərin baha olması ölkə vətəndaşlarını digər alternativ vasitələr seçməyə sövq edir"*



Ancaq o da faktdır ki, Azərbaycanın turizm sektorunda qiymətlərin optimallaşdırılması ilə bağlı atılan addımlar ciddi nəticə vermir. Çünki buraya yönələn investisiyaların həcmi artmalıdır. Problem ondadır ki, turizm sektoruna qoyulan sərmayələrin həcmi 2015-2017-ci illər arasında azalıb. Bununla belə, Gürcüstan və Türkiyə bazarının Azərbaycanın turizm bazarı üzərində formalaşdırdığı təzyiq də bu sektorda qiymətlərə təsir edir. 2017-ci ildə turizm sektorunda qiymətlər 7 faiz artıb. Ümumilikdə, proses gedir və bu, uzunmüddətli olacaq. Fikrimcə, Azərbaycanın turizm sektoruna əsasən xarici investorların iştirakına müvafiq şərait yaradılmalıdır. Vergi siyasəti daha da liberallaşdırılmalı, güzəştlər tətbiq edilməlidir. Ən başlıcası, xidmətin səviyyəsi yüksəldilməlidir. Yalnız bunlardan sonra ölkənin turizm sektoru inkişaf edə bilər".

***Vidadi ORDAHALLI***



# "Nar" müştəri loyallığı indeksinə görə liderdir

**"Nar" 2019-cu ilin 6 ayı ərzində əldə etdiyi nailiyyətlər barədə açıqlama verib. Mobil operatorun təqdim etdiyi tariflər və qiymətlərin sərfəli olması, baza stansiyalarının sayının sürətlə artımı, abunəçilərə göstərilən yüksək keyfiyyətli internet xidməti sayəsində "Nar"ın abunəçi bazası çoxalıb.**

Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə aktiv abunəçi bazası 13% artıb. Hazırda mobil operatorun istifadəçilərinin sayı 2,3 milyona yaxınlaşıb.

Ötən yarım ilin nəticələrinə əsasən, "Nar" mobil şəbəkəsini daha da genişləndirməyə nail olub. Mobil operator 6 ay ərzində 490 yeni baza stansiyası quraşdırıb. Hazırda "Nar"ın 4G baza stansiyalarının sayı 2140-ı, 3G baza stansiyalarının sayı isə 2700-ü ötüb. Bununla da "Nar" ölkədə ən geniş 4G şəbəkəsinə malik mobil operator olub. Aparılan şəbəkə təkmilləşmə işlərinin nəticəsi olaraq paytaxla yanaşı, regionlarda da "Nar" şəbəkəsi daha da gücləndirilib. Hazırda 53 region 4G baza stansiyası ilə təmin edilib.

Ölkə ərazisində yeni baza stansiyalarının sürətlə quraşdırılması sayəsində 4G istifadəçilərinin sayı 96% artıb. "Nar" abunəçiləri arasında smartfon iştifadəçilərinin sayı isə 17% çoxalıb. Ümumilikdə, mobil operatorun abunəçiləri arasında smartfon iştifadəçilərinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə regionlar üzrə 15%, Bakı üzrə isə 18% artıb.

Media nümayəndələrinin iştirakı ilə yarım ilin nəticələrinin açıqlandığı mətbuat konfransında "Azerfon"un baş icraçı direktoru Qunnar Panke bildirib ki, "Nar" 6 ay ərzində nəzərəçarpacaq nəticələr əldə edib: "Nar" olaraq əsas hədəflərimizdən biri üstün müştəri məmnuniyyətinə nail olmaq və hər bir müştəriyə fərdi yanaşmanı yüksək səviyyədə təmin etməkdir. Azərbaycan mobil rabitə bazarında müşahidə olunan güclü raqabət mühitində biz müştəri yönümlü strategiyamızı uğurla davam etdirmişik və müştəri məmnuniyyətində artıma nail olmuşuq. Müştərilərə göstərdiyimiz yüksək keyfiyyətli xidmət sayəsində 2 il ərzində ilk dəfə olaraq müştəri loyallığı indeksi üzrə mobil operatorlar arasında "Nar" birinci olub".

"Nar" abunəçilərinə çağrı mərkəzləri, nar.az internet səhifəsi ilə yanaşı, sosial media vasitəsilə də yüksək keyfiyyətli və operativ müştəri xidmətləri göstərməkdə davam edir. Belə ki, son 6 ay ərzində mobil operator sosial şəbəkələri vasitəsilə abunəçilər tərəfindən 115 mindən çox müraciət daxil olub. Sosial şəbəkələr vasitəsilə daxil olmuş müraciətlərin 94,7%-i bir dəqiqə ərzində cavablandırılıb.

2019-cu ilin 6 ayı ərzində mobil operator ikiqat internetdən istifadə və daha çox ünsiyyət qurma imkanı verən "CavanNar" tarifini, eləcə də xaricə səyahət etmək istəyən abunəçiləri üçün sərfəli rominq paketləri təqdim edib.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# Unudulmuş daha bir yaradıcılıq növü - teletamaşalar...

*Zülfiyyə Eldarqızı: "Teletamaşalar çəkilərsə, bu, televiziyalarımıza tamaşaçılarda marağın artmasına səbəb ola bilər"*



*"Televiziyaların müasir dövrdə teletamaşalar çəkməməsinin səbəbi tamaşaçı qıtlığı ilə bağlıdır"*

**Bu gün yaşlı və orta nəslə mənsub çox az adam tapılar ki, bir vaxtlar Azərbaycan Televiziyası tərəfindən istehsal edilən, mövzu, süjet, rejissura, aktyor oyunu baxımından maraqlı və baxımlı olan teletamaşaları xatırlamasın. Həmin televiziya tamaşaları bu gün də tamaşaçı marağını özünə cəlb etməkdə davam edir.**

Baxmayaraq ki, bu teletamaşalar Sovet dövründə çəkilib və burada həmin dövrün ab-havası var, yenə də sevilirlər, arzulanırlar.

Bu gün təəssüf ki, Azərbaycan televiziyalarında teletamaşalar çəkilmir, bu sahə sanki unudulub, birdəfəlik arxiv küncünə atılıb. Halbuki, keçən dövrlərlə müqayisədə müasir dövrdə Azərbaycan televiziyalarının maddi-texniki bazası daha zəngindir, televiziyaların həm kadr potensialı, həm də başqa göstəriciləri imkan verir ki, teletamaşalar çəkilsin. Müasir dövrdə televiziya tamaşasının materialına çevrilməli olan kifayət qədər əsər var ki, onları teletamaşa şəklində çağdaş tamaşaçıya təqdim etmək tam mümkündür.

Hazırda Azərbaycan televiziyalarının teletamaşalara maraq göstərməməsinin kökündə hansı səbəblər dayandığı tamaşaçıları da ciddi şəkildə düşündürür.

Məlumat üçün bildirək ki, keçmiş SSRİ-də ilk televiziya tamaşası 1938-ci ildə nümayiş olunub. 1950-ci illərin əvvəllərinə qədər teletamaşalar efirdə canlı olaraq təqdim edilib. Azərbaycan televiziyasında teletamaşalar isə ötən əsrin ortalarından çəkilməyə başlayıb.

Ekspertlər qeyd edirlər ki, 1956-cı ilin iyulunda N.Nərimanovun "Şamdan bəy" pyesi əsasında rejissor Rauf Kazımovskinin quruluş verdiyi tamaşa ilk televiziya tamaşası hesab olunur. Daha sonra Məhərrəm Əliyevin "Sən gözəlsən", 1963-cü ildə Süleyman Sani Axundovun "Laçın yuvası" pyesi, 1964-cü ildə Mehdi Hüseynin "Səhər" romanı əsasında hazırlanmış tamaşalar təqdim edilib. 1960-cı illərin ortalarında Adil İsgəndərov, Məhərrəm Haşımov, Rauf Kazımovski, Ağaəli Dadaşov, Arif Babayev və digər rejissorlar efirdə sanballı tamaşaların quruluşçu rejissoru kimi çıxış ediblər.

1970-1980-ci illərdə Azərbaycan Televiziyasında Bünyad Məmmədov, Ramiz Həsənoğlu (Mirzəyev), Tariyel Vəliyev, Məhərrəm Bəzirzadə və başqa rejissorlar öz fəaliyyətləri ilə diqqəti cəlb ediblər. 1980-ci illərin əvvəllərindən televiziya tamaşalarında natura çəkilişləri effektinə də yer ayrılmağa başlayıb. 1993-cü ildə televiziya teatrını inkişaf etdirmək məqsədilə "Sabah" yaradıcılıq birliyi yaradılıb. Fəaliyyətini bu gün də davam etdirən "Sabah"ın tamaşaçılara təqdim etdiyi ilk tamaşa C.Məmmədquluzadənin "Kamança" pyesinin motivləri əsasında hazırlanmış teletamaşa olub. Sovet quruluşunun dağılması ilə yeni idarə və ifadə tərzlərinin meydana gəlməsi Azərbaycan Televiziyasında tamaşaların istehsalında uzun fasiləyə səbəb olmayıb, teletamaşaların hazırlanması prosesi davam edib. Lakin təəssüflə qeyd olunmalıdır ki, müstəqillik dövrünün teletamaşalarının bədii keyfiyyətlərinin daha zəif olması televiziya kimi kütləvi sənət növündə nəzərə çarpmaya bilməz.

Mütəxəssislər qeyd edirlər ki, müxtəlif dövrlərə aid nəinki milli, həmçinin, sovet və dünya klassikasının və ən yaxşı müasir dövr ədəbi nümunələrini: "Topal Teymur"(H.Cavid, R.Həsənoğlu, 1983), "Kreyser sonatası" (L.N.Tolstoy, R.Savalan, A.Zamanlı, 1984), "Unudulan adam" (N.Hikmət, L.Məmmədbəyli, 1987), "Köhnə dəbli komediya" (A.Arbuzov, B.Məmmədov, 1981), "Mehmanxana sahibəsi" (K.Qoldoni, L.Məmmədbəyli, 1978), "Günahsız Abdulla" (M.Cavaxişvili, D.Mustafa, R.Həsənoğlu, 1984), "Qapalı orbit" (A.Laurinçyukas, R.Həsənoğlu, 1984), "Ötən ilin son gecəsi" (Anar, R.Həsənoğlu, T.Vəliyev, 1978), "Atayevlər ailəsi" (İ.Əfəndiyev, L.Məmmədbəyli, 1987) və s. kimi mükəmməl, hətta Mərkəzi Televiziyanın analoji tamaşalarını geridə qoyan yüksək planka belə tənqidi yanaşmaya imkan yaradır.

Onu da qeyd edək ki, həmin dövrdə çəkilən televizya tamaşaları tamaşaçılarda az qala bir bədii filmin təəssüratını yarada bilirdi.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, aktrisa Zülfiyyə Eldarqızı hesab edir ki, bu gün televiziyaların televiziya tamaşaları çəkməməsinin səbəbi tamaşaçıların televiziyaya olan tələbatının az olmasından irəli gəlir. Onun sözlərinə görə, bir vaxtlar televiziya tamaşalarına ona görə böyük maraq və ehtiyac var idi ki, alternativ vasitələr yox idi. O bildirdi ki, televiziyalar tamaşaçı istəyini nəzərə almalıdırlar, yoxsa ucuz şouvari seriallarla heç nə əldə edə bilməyəcəklər. "Vaxtilə Azərbaycan televiziyası çox güclü və maraqlı televiziya tamaşaları çəkirdi və bu ekran əsərləri də tamaşaçıların sevgisini qazanırdı. O illərdə çəkilən televiziya tamaşaları çox baxımlıdır. Bu gün isə televiziya tamaşalarının çəkilməsinə televiziyalar tərəfindən birmənalı olaraq maraq göstərilmir. Telekanallar hesab edirlər ki, internetin, sosial şəbəkələrin insanları məşğul etdiyi dövrdə onları televiziya tamaşalarına baxmağa məcbur etmək mümkün deyil. Bu gün Azərbaycan insanını internetdən, sosial şəbəkələrdən qoparıb maraqlı televiziya tamaşalarına cəlb etmək olar. Sadəcə, gərək o televiziya tamaşaları çox maraqlı çəkilsin və həyati əhəmiyyəti olsun. Görürsünüz, bu gün tamaşaçılar "Atayevlər ailəsi", "Alov" və başqa teletamaşaları necə gözəl xatırlayır, o tamaşaların mənasından, ideyasından, məzmunundan məmnunluqla danışırlar. Çünki bu teletamaşalar peşəkarlar tərəfindən yaradılıb. Düşünürəm ki, televiziyada xüsusi bir sahə olan teletamaşaları dirçəltmək məqsədəuyğundur. Bu gün də yaxşı yazıçılarımız var, onların əsərləri əsasında televiziya tamaşaları çəkmək lazımdır. Azərbaycan televiziyalarının maddi-texniki bazası, burada çalışanların peşəkarlığı imkan yaradır ki, yeni dövrün ruhuna uyğun televiziya tamaşaları çəkilsin. Hesab edirəm ki, teletamaşalar çəkilərsə, bu, televiziyalarımıza tamaşaçılarda marağın artmasına səbəb ola bilər" - deyə Z.Eldarqızı vurğuladı.

O qeyd etdi ki, müstəqilliyimizin ilk illərində televiziya tamaşaları çəkilsə də, onların çoxunun bədii keyfiyyəti çox aşağıdır. Tamaşaçılar bədii keyfiyyəti, məzmun və ideyası mükəmməl olan televiziya tamaşaları istəyirlər.

"Müstəqilliyimizin əvvəllərində çəkilən teletamaşaların böyük əksəriyyətinin bədii keyfiyyəti elə də yüksək olmadığı üçün onlara tamaşaçı tələbatı azaldı. Fikrimcə, televiziyaların müasir dövrdə teletamaşalar çəkməməsinin səbəbi tamaşaçı qıtlığı ilə bağlıdır" - deyə o qeyd etdi.

***İradə SARIYEVA***

№ 148 (4046) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

24-26 AVQUST 2019-cu il

# Dünyanın ən qədim romanı...

**Murasaki Şikibunun "Gencinin hekayəsi" əsərinin dünyada qələmə alınmış ilk roman olduğu bildirilir. "AZƏRTAC" bildirir ki, bu qənaəti Harvard Universitetinin yapon incəsənəti və mədəniyyəti üzrə professoru Melissa MakKormik bölüşüb.**




Min il bundan əvvəl (1001-ci ildə) yazılmış bu əsər və onun ardından Murasaki Şikibunun Hikaru Gencinin həyatına həsr etdiyi digər əsərləri dünya ədəbiyyatının şedevrlərindən sayılır. Əvvəlcə "To-Şikubu" adlanan bu şairə və yazıçı məhz romandakı Murasaki obrazına görə eyni ada layiq görülüb. Heyan dövründə (794-1185-ci illər) yapon adətlərinə görə qadınların adı olmadığından, yazıçı sonradan qəhrəmanın adı ilə tanınıb. Professor MakKormik qeyd edib ki, "Gencinin hekayəsi" dünyada tayı-bərabəri olmayan şöhrət qazanıb. Belə ki, 1925-ci ildə Artur Valenin tərcümə etdiyi əsər sonradan bir neçə dəfə ingiliscəyə, habelə bir çox dillərə tərcümə edilib. Onun sonuncu nəşri isə 1300 səhifədən ibarətdir.

## İnsan gözündən daha üstün olan linza hazırlandı

Harvard Mühəndislik və Tətbiqi Elmlər Məktəbinin mühəndisləri süni əzələ və düz kontakt linzaların yaradılması texnologiyalarını birləşdirərək obyektlərin şəkillərini onları insan gözünün gördüyü kimi çəkən yeni elektron linza hazırlayıblar. "ICTnews" xəbər verir ki, linza süni əzələlərin bərkidiliyi nazik, şəffaf dielektrik elastomerdən ibarətdir. Linza və əzələnin birgə qalınlığı 30 mk, qurğunun diametri təxminən 1 sm-dir. Kiçik ölçülü nanostrukturların köməyilə yeni linza görünən işığın bütün spektrini bir nöqtədə toplamaq qabiliyyətinə malikdir. Bu, ona eynilə insan gözündə olduğu kimi real vaxt rejimində fokusu dəyişdirməyə imkan verir. Yeni linza bəzi aspektlər üzrə insan gözünü üstələyir - məsələn, sözügedən linza insan gözü üçün əlçatmaz olan astiqmatizmə düzəlişlər edə bilər. Tədqiqat müəllifləri məlumat veriblər ki, yaxın vaxtlarda yeni linzaların istehlak kameraları və cihazlarda tətbiq olunma ehtimalı son dərəcə azdır - ehtimal ki, yeni linzalar 10 il sonra istifadə ediləcək.



# Üztanıma funksiyalı eynəklərin sınaqları keçirilir

**Texnologiyanın daha bir nailiyyəti - üztanıma funksiyalı eynəklərin sınaqları keçirilir.**

"AZƏRTAC" bildirir ki, "NtechLab" şirkətində hazırlanan bu eynəklərin sınaqları bu ilin payızında yekunlaşacaq və bundan sonra onların kütləvi istehsalına başlanacaq. Qeyd olunur ki, üztanıma funksiyalı eynəklərin təcrübə mərhələsində istismarını Moskva şəhərinin İnformasiya texnologiyaları departamenti həyata keçirəcək. Yeni texnoloji ixtiranın özəlliyi ondan ibarətdir ki, eynəklərin vasitəsilə cinayətdə şübhəli bilinən və ya digər səbəblərdən axtarılan şəxsi ən sıx insan kütləsinin arasında da müəyyən etmək mümkün olacaq. Belə ki, eynəyin linzasında olan cihaz



həmin şəxsin məlumatlarını operativ şəkildə təhlil edərək, mərkəzə ötürəcək. Şirkətin mütəxəssislərinin sözlərinə görə, yaxınlıqdakı mobil cihazların siqnallarının yaratdığı maneələrlə bağlı son detallar, habelə batareyaların fəaliyyəti təkmilləşdirilir.

"NtechLab" şirkəti layihənin texniki reallaşdırılması ilə məşğul olur və müvafiq proqramı hazırlayır. Eynəklər isə müxtəlif istehsalçıların məhsulu ola bilər. Üztanıma funksiyalı eynəklərin Rusiyanın iri şəhərlərinin polis orqanlarında istifadə olunacağı bildirilir. Layihənin müəllifləri bildiriblər ki, qanun keşikçiləri onların köməyi ilə cinayətkarı hər hansı qələbəlikdə aşkar edə bilərlər, çünki, bu eynəklər maksimum 1 saniyə ərzində bir neçə milyard fotoşəkil olan bazadan həmin şəxsi axtarıb tapacaq.

**Elan**

Şəki rayonu, Böyük Dəhnə kənd sakini Baxışov Rəsul Telman oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 948 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Təhlükəsizliyinizə və işinizin səlis yerinə yetirilməsinə fikir verin. Hadisələrin bir qismini nəzarətdə saxlayın. Məntiqli olun, soyuqqanlı və təmkinli davranın. Emosiyalara uymayın, avantür təkliflərə aldanmayın.

**Buğa** - Günün ilk yarısından etibarən bir çox işlərin öhdəsindən gələ bilərsiniz. Tələskənliyə yol verməyin, vurnuxmaların fiqurantına çevrilməyin. İşgüzar əlaqələri intensivləşdirin. Axşam saatlarında alış-verişə yollanmaq olar.

**Əkizlər** - Məntiqlə davranın, radikal qərarlar qəbul etməyin. Həddən ağır iş görərək özünüzü yormayın. İfrat yorğunluq bir çox xətaların mənbəyidir. Rasionunuza fikir verin. İşlə bağlı məsələlərin həllində aktiv olun.

**Xərçəng** - Yaxın ətrafınıza, yaşam arealınıza diqqət yetirin. Ağıllı və fəndgir davranın, ehtiyatı əldən verməyin. Qüvvələrinizi bərpa etməyə çalışın. Bunun üçün təmrinləri və ya prosedurları müəyyənləşdirin.

**Şir** - Hisslərinizə uyaraq düşünülməmiş addımlar atmayın. Günün emosional fonu sizdən rasional və praqmat davranış tələb edir. Həddən artıq aktiv olmayın. Zərurət varsa, tempi bir qədər aşağı salın.

**Qız** - Ünsiyyətdə qarşılıqlı maraqları ön plana çəkməyin. Kompromisslərə meylli olun. Əhvalınız və səhhətiniz imkan verirsə, daha çətin işlərə başlamaq olar. Fəaliyyətinizdə ciddi, əhəmiyyətli dəyişikliklər olmayacaq.

**Tərəzi** - Mənəvi və fiziki sağlamlığın vəhdətinə nail olun. Çalışdığınız şəraitin rahat, yeni planların reallaşdırılması üçün əlverişli olmasına can atın. Var qüvvənizlə işləyirsinizsə, nəticənin də məntiqi olmasına can atın.

**Əqrəb** - İstənilən, hətta ən kiçik işlərdə fayda və mənfəət arayın. Hadisələri tələsdirməyin. Etdiyiniz seçimi dərhal açıqlamayın. Ev işləri və ailə tədbirləri üçün əlverişli zamandır.

**Oxatan** - Günün ilk yarısından səs-küydən, qarmaqarışıqlıqdan uzaq olun. Əhvalınızı poza biləcək insanlardan uzaq durun. Dəyər verdiyiniz insanlarla birgə fəaliyyətə üstünlük verin.

**Oğlaq** - Günün ilk yarısından etibarən aqressiv olmayın. Dəyər verdiyiniz insanlarla normal davranın. Kollektiv fəaliyyətdə fayda var. Çətin durumlarda təmkinli davranın, emosiyalara qapılmayın.

**Dolça** - Gərgin, ağır və mürəkkəb intellektual fəaliyyət üçün yararlı zamandır. Önəmli qərarlar qəbul edəndə tələskənliyə yol verməyin. Yeni layihəyə başlamaq üçün münasib zaman olsa da, situasiyanı tam dəqiqliklə qiymətləndirin.

**Balıqlar** - Günün ilk yarısından etibarən yaxın ətrafınızdakı insanlarla və qohumlarınızla münasibətlərdə gərginlik yarana bilər. Yaşlı qohumların, ailə üzvlərinin dediklərini dinləyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## 91 yaşlı kişinin ağ ciyərindən mismar çıxdı

**Elazığda (Türkiyə) 91 yaşlı xəstənin nəfəs borusu ilə ağ ciyərinə keçən 10 santimetrlik mismar əməliyyat yolu ilə çıxarılıb.**

"AA" xəbər verir ki, xəstəxanaya öskürək və ağır nəfəs almaq şikayəti ilə müraciət edən 91 yaşlı Keko Ateşin rentgen müayinəsi zamanı ağ ciyərində 10 sm uzunluğunda mismar olduğu ortaya çıxıb. Artıq əməliyyat olunan kişinin səhhəti qənaətbəxşdir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.